Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

10
YANVAR
2020-ci il

№ 3 (4134)

Qiyməti
40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# AVROPARLAMENTİN 9 FEVRAL SEÇKİSİNİ MÜŞAHİDƏDƏN İMTİNASI - AZƏRBAYCAN PREZİDENTİNİN AZ ƏVVƏLKİ ƏSASLI BƏYANATINA QƏRƏZLİ SİYASİ REAKSİYA...

■ səh. 5 ■

Prezident qanunsuz tikintiləri birtəhər sənədləşdirmiş əmlak-qeydiyyat məmurlarını da vurdu... ■ səh. 2 ■

Prezident Bakının tarixi mərkəzi probleminə birdəfəlik nöqtə qoydu ■ səh. 3 ■

Abşeron rayonunda məktəb yeri problemi - Prezidentin iradı prosesi yerindən qaldıracaq ■ səh. 10 ■

Paşinyan "dəfələrlə Azərbaycana müharibəni başlamaq və Ermənistanı qınamaq fürsəti verib" ■ səh. 8 ■

Son ABŞ-İran çəkişməsi ilə bağlı şok iddialar - "ABŞ vurulacaq obyektləri öncədən bilirdi", "Rusiya İranın vurulmasında maraqlıdır"... ■ səh. 6 ■

Paşinyan təzə eyforiyada - 2020-ci ildə ÜDM səviyyəsinə görə Azərbaycanı ötəcəyik... ■ səh. 7 ■

Azərbaycan dünyanın 10 məşhur "macəra turizmi" ölkəsi sırasında... ■ səh. 11 ■

Kənd Təsərrüfatı Nazirliyi "450 min fermer" rəqəminə şübhələri doğru saymadı ■ səh. 12 ■



■ səh. 3 ■

## Azərbaycanın arxitekturasını bərbad günə qoyanlar əsasən icra başçılarıdır - Prezidentin komitə sədrinə qəti tapşırığının birmənalı səbəbi...





Azərbaycan «qaz siyasəti» ilə Türkiyə, Rusiya və hətta ABŞ-ı bir araya gətirə bildi... ■ səh. 9 ■

Ermənistan vətəndaşları 62, biz isə 76 ölkəyə vizasız gedib-gələ bilirik - düşmən ölkə ilə daha bir güc fərqimiz... ■ səh. 5 ■

Ermənistandan Putinə yeni ittiham - 100 il əvvəl bizim torpaqlarımızı böldünüz, indi də Ərdoğanla Suriya və Liviyanı bölürsən... ■ səh. 7 ■

■ səh. 4 ■ Öz zəifliyini və biabırçı məğlubiyyətini ört-basdır etmək üçün dövlətin adını zərbədə qoyan namizədlər - "Dairədə mənə təzyiqlər var"...



■ səh. 4 ■ Sosial şəbəkələrdə seçki prosesinə dair qanun normalarını pozmağa görə məsuliyyət...



■ səh. 10 ■ Tikintilərə icazə icra hakimiyyətlərindən alınaraq Şəhərsalma və Arxitektura Komitəsinə verildi...



■ səh. 12 ■ VTB Bankın müştəriləri ilə 200 manat mübahisəsi...



■ səh. 14 ■ Azərbaycan təhsil sistemində yeni nəzarət strukturu - Agentlik nə edəcək...





# Prezident Abşeronda avtomobil yollarının əsaslı təmirinə 19,7 milyon manat ayırdı

**Prezident İlham Əliyev Abşeron rayonunun ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Abşeron rayonunun Saray, Ceyranbatan, Mehdiabad, Qobu qəsəbələrinin və Masazır kəndinin ərazilərində ümumi uzunluğu 29,2 kilometr olan avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 19,7 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək.

Nazirlər Kabinetinə tapşırılır ki, bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**"Bəzi hallarda torpaqlar zəbt olunur və tələm-tələsik binalar tikilir. Sonra da bu binalar, evlər hansısa qanunsuz yollarla sənədləşdirilir və biz artıq fakt qarşısında qalırıq". Bunu Prezident İlham Əliyev Anar Quliyevi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edərkən deyib.**

# Prezident qanunsuz tikintiləri birtəhər sənədləşdirmiş əmlak-qeydiyyat məmurlarını da vurdu...

## *Nüsrət İbrahimov: "Bu sahədə müəyyən boşluqlar olub"*



Ölkə başçısının sözlərinə görə, əfsuslar olsun ki, əvvəlki dövrlərdə şəhərsalma qaydaları bəzi hallarda kobudcasına pozulurdu: "Bakının müxtəlif yerlərində tarixi keçmişimizə zidd olan, heç bir memarlıq standartına uyğun olmayan yöndəmsiz və eybəcər binalar tikilirdi. O binalar elə tikilirdi ki, həm ümumi mənzərəyə ziyan vururdu, həm də orada heç bir şəhərsalma əmsalı nəzərdə tutulmurdu. Son vaxtlar mənim göstərişimlə, xüsusilə Şəhərsalma və Arxitektura Komitəsinin rəhbərliyinin dəyişilməsi nəticəsində artıq bu qaydalara riayət edilməyə başlanmışdır. Bunu iş adamları da nəzərə almalıdırlar".

Prezident qeyd edib ki, rayon icra hakimiyyəti orqanları komitədən razılıq almadan heç bir binanın tikilməsinə icazə verə bilməzlər: "Siz bu funksiyalardan çox səmərəli şəkildə istifadə etməlisiniz. Sizin nəinki Bakıda və böyük şəhərlərdə, bütün ölkə üzrə monitorinq qrupları olmalıdır. Çünki bəzi hallarda torpaqlar zəbt olunur və tələm-tələsik binalar tikilir. Sonra da bu binalar, evlər hansısa qanunsuz yollarla sənədləşdirilir və biz artıq fakt qarşısında qalırıq. Ona görə monitorinq qrupları olmalıdır. Bütün yerli icra orqanlarına bir daha tapşırıq verirəm ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəyi olmadan qətiyyən bir dənə də bina tikilə bilməz. Biz buna son qoymalıyıq".

Həqiqətən də bir sıra hallarda qanunsuz olaraq zəpt olunan torpaqlarda evlər tikilir və sonra da müxtəlif "əyri" yollarla həmin evlərə sənəd düzəldilir. Əslində, o cür tikilən evlərə mülkiyyət hüququnu təsdiq edən sənədlərin verilməsinin qanuni əsası yoxdur. Təəssüflər olsun ki, bəziləri müxtəlif qaranlıq yollarla buna nail olublar. Belə halların sayı kifayət qədər çoxdur. Təbii ki, bütün bunlarda ən böyük günahı olan qurum məhz Dövlət Əmlak Komitəsidir. Yeri gəlmişkən qeyd edək ki, sözügedən qurum ötən ilin sonunda ləğv edilərək Vergilər Nazirliyi ilə birləşdirildi. Ancaq reallıq ondan ibarətdir ki, belə qanunsuz tikililərə mülkiyyət hüququnu təsdiq edən sənədlər əsasən bu qurum tərəfindən verilib. Düzdür, sözügedən sənədlərin verilməsində digər qurumların da rolu var. Ancaq hər kəsə bəllidir ki, bu işdə əsas söz sahibi Əmlak Komitəsi olub. Prezident məlum yanaşması ilə, bir növ, onların fəaliyyətini tənqid etdi. Əgər onlar işlərində düz olsaydılar, o zaman qanunsuz tikililərə "əyri" yollarla sənəd verilməzdi.

*"Əvvəllər hətta məhkəmələrin qərarları ilə bu kimi torpaqlara, tikililərə sənədlər verilirdi"*

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimov bununla bağlı bir sıra məqamlara toxundu: "Torpaq sahəsinin çıxarışı yoxdursa, onun üzərində tikilən tikiliyə sənəd verilmir. Əvvəllər də verilmirdi, bu gün də verilmir. Ancaq belə hallar olub ki, torpaq qanunsuz olaraq zəbt edilib və sonra hansısa yollarla ona sənəd düzəldilib. Prezidentin fərmanında və qanunda göstərilən sənədləri varsa, o zaman torpaq sahəsinə və üzərindəki tikiliyə müvafiq icra strukturları tərəfindən sənəd verilir. Ən azından, torpağın sənədi yoxdursa, tikiliyə heç bir sənəd verilmir. Çünki bunun heç bir hüquqi bazası yoxdur. Əvvəllər bu sahədə müəyyən boşluqlar olub. Bununla belə, təkcə Əmlak Komitəsinin bu işdə günahı olduğunu demək doğru olmaz.

Digər qurumların da bunda müəyyən payı var. Sovetlər dönəmində torpaqla bağlı kənd sovetləri müəyyən sənədlər verirdi. Müstəqillik dövründə icra hakimiyyətləri, bələdiyyələr torpaqlarla bağlı sərəncamlar verirdilər. Sonra bu dayandırıldı. Əvvəllər hətta məhkəmələrin qərarları ilə bu kimi torpaqlara, tikililərə sənədlər verilirdi. Hesab edirəm ki, bundan sonra sözügedən sahədə olan problemlər həll ediləcək".

***Vidadi ORDAHALLI***



© Trend News

# Baş prokuror Tovuzda azyaşlının öldürülməsi hadisəsi ilə bağlı konkret tapşırıqlar verdi

**Baş prokuror Zakir Qaralov Tovuzda azyaşlının öldürülməsi hadisəsi ilə bağlı konkret tapşırıqlar verib.**

Baş Prokurorluqdan baki-xeber.com-a verilən məlumata görə, müşavirədə, həmçinin, dövlət başçısının xüsusi nəzarətində olan və ictimaiyyəti narahat edən Tovuz rayonunun Dondar Quşçu kənd sakini, azyaşlı Nərmin Quliyevanın qəsdən öldürülməsi faktı ilə bağlı başlanmış cinayət işi üzrə Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti ilə birgə həyata keçirilən intensiv istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirlərinin gücləndirilərək qısa vaxt ərzində cinayəti törətmiş şəxs və ya şəxslərin müəyyənləşdirilməklə məsuliyyətə cəlb edilmələri ilə bağlı konkret tapşırıqlar verilib.

Xatırladaq ki, Tovuz rayonunun Dondar Quşçu kəndində anadan olmuş 2010-cu il təvəllüdlü Quliyeva Nərmin Şərif qızının 21 noyabr 2019-cu il tarixdə itkin düşməsi ilə əlaqədar aparılmış araşdırmalarla onun qəsdən öldürülməsinə kifayət qədər əsaslar müəyyən edildiyindən, Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində Cinayət Məcəlləsinin 120.2.9-cu (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı qəsdən öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Yanvarın 6-da azyaşlının Dondar Quşçu kəndi ərazisində yanmış meyitinin aşkar olunması ilə əlaqədar dərhal Daxili İşlər Nazirliyinin, Baş Prokurorluğun, Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin və Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Elmi-Təcrübi və Tədris Birliyinin təcrübəli əməkdaşları Tovuz rayonuna ezam olunublar.

Hazırda iş üzrə cinayəti törətmiş şəxs və ya şəxslərin müəyyən edilməsi istiqamətində zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Anar Quliyevi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edib. Görüşdə çıxış edən Prezident İlham Əliyev deyib: "Mən sizi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsinə təyin edirəm.**



# Azərbaycanın arxitekturasını bərbad günə qoyanlar əsasən icra başçılarıdır - Prezidentin komitə sədrinə qəti tapşırığının birmənalı səbəbi...

***İlqar Hüseynli:** "İcra hakimiyyətlərində memarlar var, onların hazırladıqları eskiz layihələrin hamısı nəzərdən keçirilməlidir"*

Siz hazırda sədrin birinci müavini vəzifəsində çalışırsınız. Bu, sizə göstərilən böyük etimad və sizin üçün böyük məsuliyyətdir. Çünki mənim tapşırığımla Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin funksiyaları genişləndirilib. Hazırda bu komitənin şəhərsalma və memarlıq prinsiplərini müasir əsaslarla təşkil etmək üçün xüsusi rolu və əhəmiyyəti vardır".

Ölkə başçısı şəhərin arxitektur görünüşünün korlanmaması üçün yeni təyin olunan məmura icra başçılarının tikinti işlərinə müdaxilələrinin qarşısını almağı tapşırıb: "…Bakı şəhəri bundan sonra ancaq Baş Plan əsasında inkişaf etməlidir. Baş Plana uyğun olmayan heç bir bina Bakıda tikilməməlidir. Komitəyə yeni funksiyalar verilib və komitənin razılığı olmadan heç bir bina tikilə bilməz. Rayon icra hakimiyyəti orqanları komitədən razılıq almadan heç bir binanın tikilməsinə icazə verə bilməzlər. Siz bu funksiyalardan çox səmərəli şəkildə istifadə etməlisiniz. Sizin nəinki Bakıda və böyük şəhərlərdə, bütün ölkə üzrə monitorinq qruplarınız olmalıdır. Çünki bəzi hallarda torpaqlar zəbt olunur və tələm-tələsik binalar tikilir. Sonra da bu binalar, evlər hansısa qanunsuz yollarla sənədləşdirilir və biz artıq fakt qarşısında qalırıq. Ona görə monitorinq qrupları olmalıdır. Bütün yerli icra orqanlarına bir daha tapşırıq verirəm ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəyi olmadan qətiyyən bir dənə də bina tikilə bilməz. Biz buna son qoymalıyıq".

Bununla Prezident, faktiki olaraq, icra hakimiyyətlərinin rayonlarda və xüsusilə də Bakı şəhərində tikinti proseslərinə kobud müdaxilə etdiklərini diqqətə çatdırmış olub. Bu xəbərdarlıq icra başçılarının məsuliyyətini nə dərəcədə artırmalıdır və onların tikinti sahəsində indiyə qədər yol verdikləri qanunsuzluqlara hansı formada qiymət verilməlidir?

## "Cinayət cəzasız qalmamalıdır"

Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məsələdə icra başçılarının böyük məsuliyyəti var: "Xüsusilə də Bakı şəhərində bu sahədə vəziyyət daha acınacaqlı olub. Çünki Bakıda yer çox bahadır. Bakının rayonlarının icra başçıları birbaşa sərəncamlar verirdilər. Tikinti üçün verilən həmin sərəncamlarda Şəhərsalma və Arxitektura Komitəsinin rəyi qətiyyən nəzərə alınmırdı. Sanki həmin qurumun varlığı formal xarakter daşıyırdı. Çünki yerli icra qurumları, faktiki olaraq, həmin qurumun da səlahiyyətlərini mənimsəmişdilər. Əslində isə şəhərin simasını qorumaq səlahiyyəti olan qurum Şəhərsalma və Arxitektura Komitəsidir. Təəssüf ki, onun səlahiyyətlərinə girən icra qurumları şəhərin ansamblını pozan binaların tikintisinə icazələr veriblər. Ümumi götürəndə, həmin quruma yeni nəfəs verildi. Çünki Prezident qəti tapşırdı ki, bu qurumun icazəsi olmadan icra hakimiyyətləri tikinti ilə bağlı hər hansı sərəncam verməsinlər. Hesab edirəm ki, indiyə qədər olan fəaliyyət yoxlanmalıdır. İcra hakimiyyətlərində memarlar var, onların hazırladıqları eskiz layihələrin hamısı nəzərdən keçirilməlidir. Düzdür, burada bəzi detallar da nəzərə alınmalıdır. Hansısa sahibkarın obyektini sökmək də doğru olmaz. Çünki bu, əlavə problemlərə səbəb ola bilər. Ancaq şəhərin ümumi simasını pozan sərəncamları verən şəxslərin əməlinə mütləq hüquqi qiymət verilməlidir. Hesab edirəm ki, ölkə başçısının çıxışı buna tam əsas verir. Çünki, faktiki olaraq, ən yuxarı səviyyədə elan edildi ki, icra hakimiyyətləri şəhərin simasını korlamaqda ön yerdə durublar. Bunun da adı cinayətdir. Cinayət cəzasız qalmamalıdır".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Anar Quliyevi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edib.**



# Prezident Bakının tarixi mərkəzi probleminə birdəfəlik nöqtə qoydu

***Fariz Xəlilli:** "İçərişəhərin ətrafı nəzərə alınmaqla, Nərimanovun heykəlinin ətrafı, Şəhidlər xiyabanı və Fəxri xiyaban da daxil olmaqla, böyük bir ərazi mərkəzi rayona aid edilə bilər"*

Görüşdə ölkə başçısı yenidən Bakının tarixi mərkəzinin yaradılmasını gündəmə gətirərək bunun vacibliyini qeyd edib. "Bir müddət bundan öncə ziyalılarla görüşdə Memarlar İttifaqının sədri təklif vermişdi ki, Bakının mərkəzi rayonu formalaşsın. Mən Bakı Şəhər İcra Hakimiyyətinə müvafiq göstərişlər vermişəm. Sizə də tapşırıram, Bakı Şəhər İcra Hakimiyyəti, Memarlar İttifaqı yığışın birlikdə təklifləri konkretləşdirin. Çünki bunun üstündən artıq uzun müddət keçib, ancaq hələ ki, mənə heç bir təklif verilməyib. Mən prinsip etibarilə bu təklifi dəstəkləyirəm. Çünki belə olan halda mərkəzi rayonda bu rayona uyğun xüsusi mühafizə tədbirləri görülə bilər və memarlıq abidələrimizə diqqət daha da yüksək ola bilər. O ki qaldı, yeni binaların tikintisinə, burada qaydalar daha da sərt olmalıdır".

Ölkə başçısı bununla Bakının tarixi mərkəzinin yaradılmasının, onun sərhədlərinin müəyyən edilməsinin bir daha vacibliyini ortaya qoydu. Qeyd edək ki, Bakının mərkəzi rayonunun yaradılması məsələsinin aktual olduğunu deyən mütəxəssislərin fikrincə, bu rayonun sərhədlərinin müəyyən edilməsi sahəsində ciddi problemlər var.Mütəxəssislər hesab edirlər ki, Bakının tarixi mərkəzinin yaradılmasında 4 rayonun ərazisi əsas götürülməlidir. Bakının tarixi mərkəzinin dörd inzibati rayonun arasında bölündüyünü deyən mütəxəssislər qeyd edirlər ki, bu rayonlar Səbail, Yasamal, Nəsimi və Nərimanov rayonlarıdır. Onların fikrincə, Bakıda həm tarixi irsimiz qorunur, həm də müasir memarlıq obyektləri inşa edilərək paytaxt sakinlərinin və turistlərin ixtiyarına verilir.

Bakının daha yüksək səviyyədə, onun tarixi əhəmiyyətinin dəqiqliklə təqdim edilməsi üçün bir sıra zəruri tədbirlərin görülməsi meydana çıxıb, o cümlədən də paytaxtın mərkəzi rayonunun yaradılması bu qəbildəndir. Sözsüz ki, burada əsas məqsədlərdən birinin şəhərin mühafizəsi, qədim memarlıq özəlliyinin qorunmasıdır.

"Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli "Bakı-Xəbər"ə bildirdi ki, Bakının tarixi mərkəzinin yaradılması çox mühümdür. F.Xəlillinin sözlərinə görə, Bakının tarixi mərkəzinin yaradılması zəruri məsələlərdən biridir. Onun dediyinə görə, əvvəlcə əsas mənələ o rayonun ərazisini müəyyən etməkdir. "Hər bir böyük, qədim şəhərin içəri şəhəri olmaqla yanaşı, həm də bayır şəhəri var. Bayır şəhər də bəlli bir dövrün mədəni landşaftını özündə saxlayır. Biz bu mədəni landşaftı pozmadan şəhərimizi inkişaf etdirməliyik. Əslində, bu məsələyə diqqət yetirmək lazımdır. Çünki bu mədəni landşaft təkcə maddi-mədəni irs deyil, həm də özündə qeyri-maddi mədəni irs özəlliklərini daşıyır. Biz bunu nəzərə almasaq, şəhər özünəməxsusluğunu itirər. Bakının mərkəzi rayonunun təşkil edilməsinə gəlincə, hesab edirəm ki, İçərişəhərin ətrafı nəzərə alınmaqla, Nərimanovun heykəlinin ətrafı, Şəhidlər xiyabanı və Fəxri xiyaban da daxil olmaqla, böyük bir ərazi mərkəzi rayona aid edilə bilər. Sözsüz ki, İçərişəhər də daxil olmaqla. Bakının mərkəzi hissəsi məlumdur. Amma burada gərək anklavları da düşünək. Şəhərin içində bu mərkəzi rayona aid ola biləcək anklavlar da olmalıdır. Mənim ağlıma gələn Sabunçu anklavıdır. Şəhərin içində bayır şəhərə məxsus ola biləcək anklavlar olmalıdır. Bu anklavlar da bayır şəhərlə birgə qorunmalıdır".

İndiyə qədər aidiyyəti qurumların və məsul şəxslərin Bakının tarixi mərkəzinin yaradılması ilə bağlı layihə təqdim edə bilməməsinə gəlincə, F.Xəlilli hesab edir ki, bu, sahə üzrə mütəxəssis, kadr qıtlığı ilə bağlıdır. "Bu istiqamətdə konkret layihənin olmamasına gəlincə, burada əsas məsələ kadrlarla əlaqədardır. Yəni cənab Prezidentin dediklərinə adekvat cavab verəcək düşünən beyinlərimiz azdır.

Baxırsan ki, ideyanı irəli sürürlər, amma bunu həyata keçirmək üçün nə planı, nə əlavə bir təklifi, nə hədəfi var, sadəcə, işə icraçı kimi yanaşırlar. Bununla iş bitmir axı. Bütün işlər əsaslandırılmalıdır. Bundan başqa, ölkə ərazisində görülən bütün işlər UNESCO-nun müvafiq sənədləşmələrinə əsasən aparılmalıdır. Vacib deyil ki, gələcəkdə bayır şəhər ayrıca olaraq UNESCO-nun siyahısına düşsün. Yəni düşə də bilər. Əsas budur ki, UNESCO-nun bəyannamələrinə, konvensiyalarına, təlimatlarına uyğun işlər görülməlidir. Təəssüf ki, biz bu kimi məsələlərdə UNESCO-nu unuduruq" - deyə F.Xəlilli qeyd etdi.

***İradə SARIYEVA***

**Ölkədə keçirilməsi nəzərdə tutulan parlament seçkiləri ilə bağlı maraqlı hadisələrin şahidi oluruq. Başa düşürük ki, bu seçkidə namizəd kimi iştirak etmək qanuni haqqı çatan hər bir Azərbaycan vətəndaşının hüququdur.**



# Öz zəifliyini və biabırçı məğlubiyyətini ört-basdır etmək üçün dövlətin adını zərbədə qoyan namizədlər - "Dairədə mənə təzyiqlər var"...

***Samir Adıgözəlli:** "Belə bəyanatları verəndə haqqı-ədaləti və ən əsası da belə faktlardan ölkəmizə qarşı istifadə ediləcəyini də nəzərə almalıdırlar"*

Ancaq təəssüflər olsun ki, seçki marafonuna şou göstərməyə meylli olan çoxlu sayda şəxsin də qatıldığını müşahidə edirik. Belə adamlar nüfuzlarının hansı şkala ilə ölçüldüyünün fərqində deyillər. Bilirlər ki, qalib gəlmək şansları yoxdur. Bu səbəbdən də gələcək acı və biabırçı məğlubiyyətlərini kompensasiya etmək üçün dövriyyəyə özlərinə "haqq" qazandıra biləcək şayiələri buraxırlar. Məsələn, indidən deyirlər ki, guya onlara DSK-dan təzyiqlər olunur. Guya kimlərsə onların imza toplamağına maneçilik törədir.

Biz də ölkədə yaşayırıq və prosesləri yaxından izləyirik. Görünən budur ki, seçki prosei ilə bağlı hamıya bərabər şərait yaradılıb. Hətta heç kimin tanımadığı şəxslər belə tələb olunan 450 imzanı asanlıqla toplayıb DSK-lara təqdim edə bilirlər. Onda isə bəzilərinin "mənə təzyiq olunur" kimi ölkəmizin imicinə zərbə vura biləcək şouslu nəyə gərəkdir?

İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bəzi adamların prosesdən sui-istifadə etmə hallarını o da yaxından müşahidə edir: "Əvvəla onu qeyd edim ki, həddən artıq çox təsadüfi, layiq olmayan adamlar deputat olmaq eşqinə düşüb. Buna nəsə deyə bilmərik. Deyəcəklər ki, hüququmuzdur. Sosial şəbəkələrin verdikləri imkanlardan istifadə edib, ağıllarına gələn hərəkəti edirlər. Bəziləri isə, sözün həqiqi mənasında, guya özünü piar edir kimi göstərməyə çalışır. Guya kimlərəsə təzyiqlərin olduğuna dair fikirləri cəmiyyətə təqdim edir. Baxıb görürsən ki, təzyiq olunduğunu deyən adam lazım olan 450 imzanı 10 gündür yığa bilmir. Belə adam təbii ki, deputat seçilə bilməyəcəyini hamıdan gözəl bilir. Mən bir neçə dəfə deputatlığa namizəd olmuşam. Bu dəfə də seçkidə iştirak etməyi planlaşdırırdım. Ancaq bəzi obyektiv səbəblərə görə bu dəfə estafetə qatılmamaq qərarını verdim. İndi mən durum deyim ki, mənə təzyiq olub? Sadəcə ayıb olar. Belə bəyanatları verəndə haqqı-ədaləti və ən əsası da belə faktlardan ölkəmizə qarşı istifadə ediləbiləcəyini də nəzərə almalıdırlar. Bir daha qeyd edirəm ki, bu tip şəxslər real mənzərəni təsvir etmirlər. Özlərini gündəmdə saxlamaq və gələcək məğlubiyyətlərinə indidən don geyindirmək üçün belə təxribatçı əməllərə qol qoyurlar".

**Məhəmmədəli QƏRİBLİ**

---

**Azərbaycanda keçiriləcək növbədənkənar parlament seçkilərinə 1 ay qalır. Qanunvericilikdə seçkiqabağı təşviqata səsvermə gününə 23 gün qalmış icazə verilir. Seçkidən bir gün əvvəl və seçki günü isə təbliğat-təşviqat aparılması qadağandır.**

*"Bu müddətdə hətta küçəyə belə təşviqat xarakterli plakat yapışdırsanız, bu, pozuntu sayılır"*

# Sosial şəbəkələrdə seçki prosesinə dair qanun normalarını pozmağa görə məsuliyyət...

***Azər Həsrət:** "Belə təşviqatın harada aparılmasının dəxli yoxdur"*



Amma qeydə alınmış namizədlər içərisində Seçki Məcəlləsinin tələblərini pozaraq, vaxtından əvvəl təbliğat işlərinə başlayanlar var. Bəziləri bu təbliğatı ənənəvi KİV-də deyil, sosial şəbəkələr üzərindən edir. Çoxlarının da arqumenti bundan ibarətdir ki, sosial şəbəkələr vasitəsilə aparılan təbliğat qanunun təsiri altına düşmür. Yəni belə qənaətdə olanlar çoxdur ki, təşviqat qaydalarının pozulması klassik KİV nümunələrində qeydə alınsa, qanun pozuntusu sayıla bilər. Sosial şəbəkələrdə təşviqat qaydalarının pozulması qanun pozuntusu sayılırmı və buna görə namizədləri hansı cəza gözləyə bilər?

Qanunun tələblərinə görə, təşviqat qaydalarının pozulması hər bir hala uyğun özünəməxsus cəza tədbiri ilə nəticələnə bilər. Namizəd bilmədən hansısa qanun pozuntusuna yol verdikdə Dairə Seçki Komissiyası ona xəbərdarlıq edə bilər. Amma həmin namizəd və ya onun səlahiyyətli nümayəndələri pozuntulara əhəmiyyət vermir, yenidən davam edirlərsə, DSK onun namizədliyinin ləğvinə belə qərar verə bilər.

Media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, təşviqatın harada aparılmasının məsləyə dəxli yoxdur: "Yəni burada cavabdeh tərəf deputatlığa namizəddir və onun apardığı təşviqat qanunun tələblərinə uyğun olmalıdır. Kimsə qanunu pozub, öz təşviqatını vaxtından əvvəl aparırsa, MSK və DSK ona xəbərdarlıq etməlidir. Bu pozuntunun qeydə alınması namizədliyin ləğvinə qədər gedib çıxa bilər. İndiki mərhələdə təşviqatla adicə informasiya paylaşımını bir-birindən fərqləndirmək lazımdır. Tutaq ki, namizədliyi irəli sürülmüş şəxslərin özlərinin namizədliyi, imza toplamalar və ya namizədliklərinin qeydə alınması ilə bağlı təqdim etdikləri informasiya təşviqat sayılmır. Bunlar, sadəcə, seçki ilə bağlı hərəkətlərdir. Həmin materiallarda seçiciləri kiməsə səs verməyə çağırış yoxdursa, bu, qanun pozuntusu sayılmır. Əgər indiki mərhələdə, yəni yanvarın 17-nə kimi hansısa namizəd seçicilərə yönəlik təşviqat çağırışları edərsə, məsələn: "mən başqa namizədlərdən üstünəm, mənə səs verin" kimi, bu, artıq təşviqat sayılır və qanunun pozulması anlamına gəlir.

Belə təşviqatın harada aparılmasının dəxli yoxdur. Yəni mən pozuntunu sosial şəbəkədə edirəm, məsuliyyətdən azadam məsələsi yoxdur. Bu müddətdə hətta küçəyə belə təşviqat xarakterli plakat yapışdırsanız, bu, pozuntu sayılır. İndiki mərhələdə bunu etmək olmaz. Qanunla müəyyən edilmiş vaxtdan isə belə təşviqat aparıla bilər. Kiminsə bu qanunu pozduğu aşkarlanarsa, həmin faktlar DSK və ya MSK-ya təqdim edilə bilər. Bunu seçki prosesinə aidiyyəti olmayan, sadə vətəndaş da edə bilər".

**Məhəmmədəli QƏRİBLİ**

# Avroparlamentin 9 fevral seçkisini müşahidədən imtinası - Azərbaycan Prezidentinin az əvvəlki əsaslı bəyanatına qərəzli siyasi reaksiya...

**Avropa Parlamenti bu il fevralın 9-da Azərbaycanda keçiriləcək növbədənkənar parlament seçkilərini müşahidə etməyəcək. Bu barədə Avropa Parlamentinin məlumatında deyilir:**

"Beləliklə, Avropa Parlamentinin və ya onun strukturlarının heç bir üzvünə Avropa Parlamenti adından seçki prosesini izləmək və şərh etmək səlahiyyəti verilmir. Əgər Avropa Parlamentinin hər hansı üzvü bu seçkiləri müşahidə etmək qərarına gəlsə, o, bunu şəxsən öz adından edəcək və heç bir halda Avropa Parlamentinin nöqteyi-nəzərini və ya mövqeyini təmsil etməyəcək". İmtinanın səbəbi açıqlanmır. Əvvəlki seçkilər zamanı Avropa Parlamentinin bəzi nümayəndələri Azərbaycanda monitorinq keçiriblər və əksər hallarda seçkilərin nəticələrini təqdir ediblər. İndiki halda, birdən-birə, onların belə bir qərar verməsi təəccüblü görünür. Qeyd edək ki, Azərbaycan Prezidenti son vaxtlar bir neçə dəfə Avropa ilə bağlı tənqidi fikirlər səsləndirib. İlham Əliyev hətta Avropanın Türkiyəyə qarşı etdiyi haqsızlıqları da qeyd edərək, onları ikili standartlara yol vermədə günahlandırıb: "Onlar Türkiyədən dahamı inkişaf etmiş ölkələrdir? Yox. Dahamı Avropa İttifaqına üzv olmaq üçün hazırlıqlıdırlar? Yox. Nə üçün onları qəbul ediblər, Türkiyəni qəbul etməyiblər? Sual aydındır, ritorikdir. Bir amilə görə, o da ondan ibarətdir ki, Türkiyə müsəlman ölkəsidir. Artıq bunu açıq deyirlər. Əvvəllər bu əsas tezisi pərdələmək üçün bəzi başqa fikirlər, müxtəlif bəhanələr gətirilirdi ki, bu ölkə hazır deyil və yaxud da hansısa proseslər baş verib. Ancaq indi bunu gizlətmirlər və müsəlman ölkəsi olduğu üçün Türkiyəni Avropa İttifaqına qəbul etmirlər. Belə olan halda, Azərbaycanı qəbul edəcəklərmi? Əlbəttə ki, yox. Əgər belədirsə, onda biz öz işimizi bəri başdan elə tutmalıyıq ki, reallaşdırıla bilməyən vədləri verməyək və lazım olmayan addımları da atmayaq. Bu, birincisi. İkincisi, lap tutaq ki, sabah bizə dedilər, bax, Azərbaycan belə ölkədir ki, biz Azərbaycanı filan tarixdə qəbul edəcəyik. Bu, bizə lazımdırmı? Avropada gedən proseslərə hər bir vətəndaş nəzər yetirəndə görür ki, hansı hadisələr baş verir, o cümlədən dini zəmində, milli-mənəvi dəyərlər zəminində. Bu proseslər bizə uyğundurmu? Əlbəttə ki, yox və bunu açıq deməliyik. Ona görə bəzi hallarda Avropa İttifaqının bayraqları ilə küçələrə çıxmaq istəyən dırnaqarası müxalifət nümayəndələri bilməlidirlər ki, onlar nə istəyirlər? İstəyirlər ki, Azərbaycanın taleyi Brüsseldəmi həll olunsun? İstəyirlər ki, bizim əsrlər boyu qoruduğumuz dəyərlər məhv olsun? Biz bu dəyərləri əsrlər boyu qorumuşuq, hətta müstəqil olmayan dövrdə. Başqa ölkələrin, imperiyaların tərkib hissəsi olan dövrdə dilimizi də, dinimizi də, dəyərlərimizi də, ənənələrimizi də, həyat tərzimizi də qorumuşuq. İndi belə olan halda, müstəqillik dövründə biz özümüz öz taleyimizi kiməsə əmanət edə bilərik? Qətiyyən yox və qətiyyən biz buna gedə bilmərik. Bizim öz tariximiz, öz mədəniyyətimiz, öz dəyərlərimiz var. Ona görə onlar bizə təklif versə belə, buna qətiyyən getmək olmaz".

**Yeganə Hacıyeva:** *"Görünür, Prezidentimizin bu mövqeyi AB-ni qane etmədiyi üçün, onlar belə siyasi reaksiya veriblər"*



Avropa Parlamentinin heç bir ciddi əsas olmadan Azərbaycandakı seçkiləri müşahidədən imtina etməsi Azərbaycan Prezidentinin az əvvəlki əsaslı bəyanatına qərəzli siyasi reaksiya sayıla bilərmi?

Beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, daxildəki müxalif qüvvələr də bu mövzunun ətrafında aktiv təbliğat aparırlar: "Qeyd edirlər ki, Avropa Parlamentinin müşahidədən imtinası Azərbaycandakı diplomatik mühitin qaneedici olmaması ilə bağlıdır. Reallıq isə başqa cürdür. Avropa Parlamenti yekcins deyil. Onun daxilində Azərbaycanla münasibətləri normallaşdırmağa çalışanlarla yanaşı, gərginləşməsini istəyənlər də az deyil. Biz zaman-zaman AP-dən müxtəlif proseslərlə bağlı bizə qarşı olan fikirləri eşitmişik. Belə mövqeyi biz Türkiyəyə qarşı da görürük. Oradakı lobbi qruplarının Azərbaycan və Türkiyəyə qarşı koordinasiyalı bir fəaliyyəti var. Haqqında danışdığımız məsələ də həmin lobbi qruplarının işidir. Avropa Parlamenti öz büdcəsini əvvəlcədən formalaşdıran bir qurumdur. Builki büdcədə onlar Azərbaycandakı seçkiləri monitorinq etməklə bağlı maliyyə ayırıblar. Seçkilərin zamanının dəyişməsinin isə buna dəxli ola bilməz.

Çünki istənilən halda bu, eyni ilə təsadüf edir. Təbii ki, bu qərarda siyasi çalarların payı da az deyil. Azərbaycan Prezidenti İlham Əliyev son il Avropa Birliyi ilə bağlı bir sıra əsaslı tənqidi fikirlər səsləndirib. Söhbət Avropa Birliyinin qarşılıqlı yox, təktərəfli faydalılıq əsasında fəaliyyətindən gedib. AB bir çox məsələdə reallıqları nəzərə almadan Azərbaycan qarşısında ağır şərtlər qoymaq istəyir. İlham Əliyev də bunları doğru olaraq qəbul etmir və buna da tam aydınlıq gətirir. Görünür, Prezidentimizin bu mövqeyi AB-ni qane etmədiyi üçün, onlar belə siyasi reaksiya veriblər. AB-nin seçkilərlə bağlı mövqeyi qərəzlidir və Azərbaycanın mövqeyinə cavab xarakteri daşıyır".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistan vətəndaşları 62, biz isə 76 ölkəyə vizasız gedib-gələ bilirik - düşmən ölkə ilə daha bir güc fərqimiz...

**Məlum olduğu kimi, İsveçrənin "Henley&Partners" şirkəti dünya ölkələrinin pasportlarının yeni reytinqini açıqlayıb. Siyahıya Yaponiya liderlik edir. Belə ki, Yaponiya pasportu daşıyan insanlar dünyanın 191 ölkəsinə vizasız səyahət etmək imkanına malikdirlər.**



Reytinqdə ikinci yeri Sinqapur (190 ölkə), üçüncü Almaniya və Cənubi Koreya Respublikası (189 ölkə) tutublar. İlk onluqda Finlandiya, İtaliya, Danimarka, İspaniya, Lüksemburq, İsveç, Fransa, İsveçrə, Portuqaliya, Niderland, İrlandiya, Avstriya, ABŞ, Böyük Britaniya, Norveç, Yunanıstan, Belçika, Yeni Zelandiya, Malta, Çexiya, Kanada, Avstraliya, Slovakiya, Litva, Macarıstan qərarlaşıblar.

Azərbaycan isə siyahıda Filippinlə birlikdə 76-cı yeri tutub. Azərbaycan pasportunu daşıyan vətəndaşlar dünyanın 67 ölkəsinə vizasız səyahət edə bilərlər.

Gürcüstan siyahıda 53-cü (116 ölkə), Türkiyə 55-ci (111 ölkə), Rusiya 51-ci (118 ölkə), Ermənistan isə 81-ci (62 ölkə) yerdə qərarlaşıb.

Göründüyü kimi, Azərbaycan bu sahədə də Ermənistanı üstələdi. İqtisadi sahələrdə olduğu kimi, vizasız gediş-gəlişdə də Azərbaycan öndədir.

**Seyid Camal Əzimbəyli:** *"Bu onu göstərir ki, Ermənistan digər ölkələr üçün cəlbedici deyil"*

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, bu onu göstərir ki, Ermənistan bütün sahələrdə olduğu kimi, vizasız gediş-gəlişdə də Azərbaycandan geridə olmağa məhkumdur: "Çünki hazırki işğalçı siyasətlə Ermənistan uzağa gedə bilməz. Ölkədə hakimiyyət dəyişikliyindən sonra bəziləri ümid edirdilər ki, bu ölkədə köklü dəyişikliklər olacaq. Ancaq çox keçmədən bəlli oldu ki, Paşinyan populizm üzərində siyasət qurub. İki il yaxın hakimiyyətdə olsa da, ölkənin problemlərini həll edə bilməyib.

*"Azərbaycan isə dünya üçün daha cəlbedicidir"*

Bu onu göstərir ki, Ermənistan digər ölkələr üçün cəlbedici deyil. Cəlbedici olsaydı, o zaman Ermənistan vətəndaşlarının vizasız səfərlərində maraqlı olacaqdılar. Azərbaycan isə dünya üçün daha cəlbedicidir, həm iqtisadi, həm də digər göstəricilərə görə. Ona görə də biz Ermənistandan öndəyik".

***Vidadi ORDAHALLI***

# Son ABŞ-İran çəkişməsi ilə bağlı şok iddialar - "ABŞ vurulacaq obyektləri öncədən bilirdi", "Rusiya İranın vurulmasında maraqlıdır"...

**ABŞ və İran arasında cərəyan edən son proseslər bu ölkələrin hələlik təhlükəli savaşdan uzaq olduğunu deməyə əsas verir. Amma hadisələrin inkişaf axarı belə müharibəni də istisna etmir. İndilikdə isə səslənən bəyanatlar hələlik daha çox nikbinlik üçün əsas yaradır.**

ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Kelli Kraftın Təhlükəsizlik Şurasına məktubu da qeyd edilən fikirləri gücləndirməyə əsas verir. O, məktubunda İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) Qüds qanadının komandiri, general Qasım Süleymaninin öldürülməsini özünümüdafiə hüququ ilə izah edib. Diplomat məktubda yazıb ki, ABŞ beynəlxalq sülh və təhlükəsizliyə gələcək təhdidlərin və ya İran tərəfdən vəziyyətin gərginləşdirilməsinin qarşısını almaq üçün heç bir ilkin şərt olmadan İranla ciddi danışıqlara başlamağa hazırdır.

Məktubda ölkələri özünümüdafiə üçün həyata keçirilən hərbi əməliyyatlar barədə Təhlükəsizlik Şurasına dərhal məlumat verməyə məcbur edən BMT Nizamnaməsinin 51-ci maddəsinə toxunulur:"ABŞ personalını və maraqlarını qorumaq üçün, lazım gələrsə, bölgədə əlavə tədbirlər görməyə hazırıq". ABŞ prezidenti Donald Tramp isə İranın bu ölkənin İraqdakı hərbi bazalarını raket atəşinə tutmasından sonra keçirdiyi mətbuat konfransında maraqlı fikir səsləndirib: "ABŞ İranla sülhə hazırdır. İran xalqına və hökumətinə müraciət edirəm. Biz istəyirik ki, sizin layiq olduğunuz böyük gələcəyiniz olsun. Birləşmiş Ştatlar sülh istəyən bütün ölkələrlə sülhə hazırdır".

"Vaşinqton Post" qəzeti isə öz mənbələrinə istinadən yazır ki, əslində, İran da müharibədən qaçmağa çalışır. Hətta bu səbəbdəndir ki, İran hakimiyyəti bilərəkdən ABŞ-ın İraqdakı obyektlərinə endirilən raket zərbələri zamanı daha az amerikalının xəsarət almasına çalışıb: "Bu, iranlılara öz simalarını saxlamağa imkan verdi. Üstəlik, hər iki tərəfə imkan yaratdı ki, müharibənin uçurumundan geri dönsünlər. ABŞ hökuməti yanvarın 7-si səhər saatlarında İranın zərbə endirəcəyi obyektlərin siyahısını bilirdi. Bu məlumatı ABŞ hərbçiləri İraq hakimiyyətinin hücumundan bir neçə saat əvvəl almışdı". Bunun ardınca daha bir maraqlı açıqlama İranın BMT-dəki daimi nümayəndəsi Məcid Taxt-Rəvançi tərəfindən gəlib. O bildirib ki, İran general Qasım Süleymaninin öldürülməsinə görə "qisas əməliyyatı"nı tamamlayıb və ABŞ tərəfdən aqressiv hərəkət olmazsa, yeni hərbi addım atmayacaq: "Bütün hərəkətlərimiz Süleymaninin öldürülməsinə görə idi. Onlar tamamlanıb. ABŞ İrana qarşı hərbi əməliyyat keçirməzsə, biz də bu cür hərəkətlər etməyəcəyik". Ekspertlər bütün bunları vacib sayır. Rusiya Federasiya Şurasının Beynəlxalq Komitəsinin sədr müavini Vladimir Cabarov da məsələyə bu fonda yanaşaraq bildirir ki, Birləşmiş Ştatların və İranın qarşılıqlı zərbələri nüvə müharibəsinin başlamasına səbəb ola bilər. Onun sözlərinə görə, tərəflər savaşdan qaçmalıdır, hələlik isə İran və ABŞ bazalarına endiriləcək raket zərbələri regionda genişmiqyaslı müharibəyə gətirib çıxara bilər: "Vaşinqton anlasa ki, hədəflərinə çata bilmir, onda nüvə müharibəsinin başlama risqi var". Bundan əlavə, senator hesab edir ki, İranın Amerika bazalarına zərbələri nəticəsində itkiləri qiymətləndirmək lazımdır: "Zərər ciddidirsə, ABŞ buna cavab verməyə bilməz". "Press TV" telekanalının məlumatına görə, İranın ABŞ-ın İraqdakı hərbi bazalarına raket zərbəsi nəticəsində 80 nəfər ölüb. ABŞ isə itkilərin olmadığını bəyan edir. Belə bir vaxtda Birləşmiş Ştatların Bağdadda yerləşən səfirliyinin raket atəşinə tutulması isə, ekspertlərə görə, savaşı tətikləyə bilər və müəyyən qüvvələr də, görünür, bu prosesdə maraqlıdır. Məlumata əsasən, Bağdadda Yaşıl bölgədə yerləşən səfirliyin yaxınlığına iki raket düşüb. Sosial şəbəkələrdə yayımlanan görüntülərdə ABŞ səfirliyinin təhlükədən xəbərdarlıq sistemlərinin də işə düşdüyü görünür.




Bunlar fonunda isə Almaniyaınn "Die Velt" qəzeti maraqlı bir iddia ilə çıxış edib. Qəzet yazır ki, İran və ABŞ arasında hazırkı konfliktin davamında elə Rusiya özü maraqlıdır. Çünki bu hal Rusiyaya Suriyada təsirini gücləndirmək imkanı verir: "Rəsmi Kreml İran generalı Qasım Süleymaninin qətlini qınadı, amma əslində Vaşinqton-Tehran konflikti Moskva üçün Yaxın Şərqdə strateji hədəflərini reallaşdırmaq şansıdır. Məhz buna görə Rusiya bəyanatlarla məhdudlaşır. Belə ki, ortamüddətli perspektivdə İranın zəifləmdilməsi Rusiya üçün faydalıdır. İran təzyiq altında qalsa, Moskva Dəməşqdə təsirini genişləndirməsi üçün imkanlardan istifadə edə bilər. Moskva Suriyada deməркəzləşmiş dövlət modelinin yaradılmasında təkid edir və bununla Suriya ordusundakı reformasiyanı nəzarətdə saxlamaq istəyir. Tehran isə şiə briqadalarının Əsəd ordusuna inteqrasiyasına və hökumət sisteminin yaradılmasına yatırım edir. Bununla Tehran ipləri əlində tutmağa çalışır. Bu isə Moskvanın regiondakı maraqlarına mənfi təsir göstərir.

Moskva çalışır ki, status-kvonun saxlanmasına yatırım etsin və əsas oyunçular - İran, İsrail, Türkiyə və Səudiyyə Ərəbistanı arasında balans yaratsın. Kreml ümid edir ki, Süleymaninin qətli Əsədin İran asılılığından azad olmağına, risqləri dəyərləndirməyinə, öz xarici siyasətini diversifikasiya etməyinə, Rusiyaya böyük yatırım etməyinə və vasitəçilərinin köməyi ilə ərəb qonşuları ilə yaxınlaşmağına səbəb olacaq. Bu, Moskva üçün ideal ssenari olardı".

***Nahid SALAYEV***

**Erməni mətbuatı Türkiyə ilə yanaşı, Rusiyanı da kəskin tənqid etməyə başlayıb. Son vaxtlar Putinə yönəlik ittiham xarakterli tənqidi yazılar artıb. Məlum olduğu kimi, Rusiya Prezidenti Vladimir Putin "Türk axını" kəmərinin açılışı ilə əlaqədar Türkiyədə səfərdə olub.**

*"Son illər Türkiyə-Rusiya əlaqələrinin strateji cəhətdən inkişaf etməsi Ermənistanda ciddi narahatlıq yaradır"*

# Ermənistandan Putinə yeni ittiham - 100 il əvvəl bizim torpaqlarımızı böldünüz, indi də Ərdoğanla Suriya və Liviyanı bölürsən...

***Məhəmməd Əsədullazadə:** "Erməni mətbuatında Putinə yönəlik ittihamların artması təsadüfi deyil"*



Səfər çərçivəsində Putin türkiyəli həmkarı Ərdoğanla görüşüb. Son görüşdən narahat olan erməni mətbuatı yazır ki, 100 il əvvəl Rusiya ilə Türkiyə Ermənistanı necə böldülərsə, indi də Suriya ilə Liviyanı bölürlər: "Suriyada Putinlə Ərdoğan arasında kürdlərin məskunlaşdığı bölgələrin bölünməsi ilə bağlı razılıq əldə edildiyi deyilir. Eyni şeyin Liviyada da tezliklə baş verə biləcəyinə işarə edirlər. Putinlə Ərdoğan 100 il əvvəl Rusiya və Türkiyənin erməni torpaqlarını öz aralarında bölüşdürdükdə etdiklərini indi Suriya və Liviyada etməyə çalışırlar".

Daha sonra qeyd edilir ki, Rusiya nə qədər çalışsa da, ABŞ dünyada ən güclü dövlətdir. O səbəbdən ABŞ bölgədən geri çəkilməyəcək. Bunu həm də onunla əsaslandırmağa çalışırlar ki, ABŞ Rusiyaya Sankt-Peterburqda yeni il üçün hazırlanan terror aktları barədə məlumat verdi: "Bu məlumat o qədər vacib idi ki, Putin şəxsən Trampa zəng edib təşəkkür etdi. Bu o deməkdir ki, ABŞ Rusiya haqqında FSB-dən daha çox şey bilir".

Göründüyü kimi, ermənilər bu dəfə Putini fərqli formada ittiham edirlər. Maraqlıdır, bütün bunların arxasında nə dayanır?

Məsələyə münasibət bildirən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, erməni mətbuatında Putinə yönəlik ittihamların artması təsadüfi deyil: "Son illər Türkiyə-Rusiya əlaqələrinin strateji cəhətdən inkişaf etməsi Ermənistanda ciddi narahatlıq yaradır. Çünki işğalçı ölkə tarix boyu regionda Türkiyə və Azərbaycana qarşı Moskvanın əlində alət olub. Ancaq Moskva öz regional və beynəlxalq siyasətini məhz İrəvanın maraqlarına uyğun atmır. Ona görə də Türkiyə ilə siyasi-iqtisadi, hərbi-texniki əlaqələri genişləndirir. Xüsusilə son vaxtlar enerji sahəsində uğurlu əməkdaşlıq regionda yeni dəyişikliklərə yol açır. Bu da Ermənistanın bir dövlət kimi əhəmiyyətini ciddi surətdə heçə endirir. Hesab edirəm ki, İrəvanın bu acizanə narahatlığı Moskva tərəfindən ciddi qəbul olunmur. Regional oyunçu olan Türkiyənin geosiyasi proseslərdə rolu Kremli daha diqqətli siyasət yürütməyə sövq edib. Putin bütün bunların fərqindədir. Xüsusilə Suriya və Yaxın Şərqdə gərginlik fonunda iki ölkə arasında münasibətlərin yüksək səviyyədə saxlanması, bundan sonra da davam etdirilməsi ermənilərin yaxın perspektivdə Moskva üçün bir önəminin qalmamasına gətirə bilər. Hərçənd, Moskvanın buna getməsi mümkün ola bilər.

Ermənistan mətbuatının Rusiyaya qarşı informasiya müharibəsi Paşinyanın Kreml tərəfindən daha da iqnoruna gətirəcək. Moskva bu kimi məsələlərə ötəri yanaşmır. Rusiyanın Ermənistana verdiyi dəstək yalnız Qarabağ məsələsindədir. Bu münaqişə həll edilərsə, Ermənistan-Rusiya münasibətləri tam qırılar. Türkiyə-Rusiya əlaqələrinin Qarabağ münaqişəsinin nizamlanmasında mühüm rol oynaması mümkündür".

***Vidadi ORDAHALLI***

---

**Məlum olduğu kimi, Ermənistanın Baş naziri Nikol Paşinyan yanvarın 6-da "Facebook" səhifəsində belə bir məlumat yaydı ki, guya Ermənistan adambaşına düşən ÜDM-in həcminə görə Gürcüstan və Azərbaycandan öndədir.**

# Paşinyan təzə eyforiyada - 2020-ci ildə ÜDM səviyyəsinə görə Azərbaycanı ötəcəyik...

***Fikrət Yusifov:** "Bu, sadəcə, Paşinyanın növbəti populist açıqlamasıdır"*



Utanmaz-utanmaz belə bir məlumatın Beynəlxalq Valyuta Fondu tərəfindən açıqlandığını bildirdi. Guya Ermənistan bu göstərici üzrə regional liderə çevrilib. Sonra bunun belə olmadığını anlayan Paşinyan özü-özünü "redaktə edərək", bir gün öncə söylədiyinin əksinə olaraq, adambaşına düşən ÜDM-in həcminə görə Ermənistanın Qafqazda yalnız Gürcüstanı keçdiyini bildirib.

Bu arada Paşinyan yenidən öz "Facebook"səhifəsində əsassız olaraq bu il adambaşına düşən ÜDM-in həcminə görə Ermənistanın Azərbaycanı da üstələyəcəyinə əminliyini ifadə edib. İddia edib ki, Ermənistan bir nəfərə düşən ÜDM ilə 2019-cu il nəticələrilə Gürcüstanı qabaqlayıb, 2020-ci ildə isə Azərbaycandan da irəli keçərək Cənubi Qafqazda lider olacaq.

Bütün hallarda, onun bu proqnozu nə dərəcədə reallığa söykənir?

Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, Ermənistanın 2020-ci ildə bir nəfərə düşən ÜDM-in həcminə görə Azərbaycanı üstələyəcəyi real deyil: "Bu, sadəcə, Paşinyanın növbəti populist açıqlamasıdır. Gərək Ermənistan sürətlə inkişaf etsin ki, sonra da gəlib bizi keçsin. Hesab edirəm ki, bu əsla mümkün olan iş deyil. Çünki Ermənistanın bununla bağlı resursları o səviyyədə deyil. Bu ölkənin nə təbii, nə də digər resursları var. Ermənistanın elə bir coğrafi mövqeyi yoxdur ki, oradan tranzit yüklər daşınsın, ora çoxsaylı turist gəlsin. Ermənistan apardığı işğalçılıq siyasəti ilə özü-özünü blokadaya alıb. Blokada şəraitində olan bir ölkənin də inkişaf etməsi mümkün deyil. Ermənistan son 15-20 il ərzində regionda reallaşdırılan bütün transmilli layihələrdən kənarda qalıb. Çünki özünü bundan təcrid edib.

*"Yaxın 10 ildə Azərbaycan iqtisadi artıma nail olmasa belə, Ermənistanın indiki inkişaf sürəti ilə..."*

Sadəcə, siyasət meydanında Paşinyan belə iyrənc oyunlar oynamaqla öz reytinqini qaldırmağa çalışır. O çox gözəl bilir ki, Azərbaycanla Ermənistan iqtisadiyyatları arasında məsafə böyükdür. Yaxın 10 ildə Azərbaycan iqtisadi artıma nail olmasa belə, Ermənistanın indiki inkişaf sürəti ilə adambaşına düşən ÜDM-in həcminə görə bizə yaxınlaşması mümkün deyil".

***Vidadi ORDAHALLI***

# Paşinyan "dəfələrlə Azərbaycana müharibəni başlamaq və Ermənistanı qınamaq fürsəti verib"

## *Ermənistanda ittihamlar gedərək unikal formalar alır...*

**Məlumdur ki, işğalçı Ermənistanda hakimiyyət dəyişikliyindən sonra bu ölkənin Rusiya ilə ciddi problemləri yaranıb. Ötən il ərzində baş verənlər sadəcə bu problemlərin daha da dərinləşməsinə rəvac verdi.**



İndi Ermənistanda belə bir fikir hakimdir ki, cari il ərzində də Rusiya ilə əlaqələrdə normallaşma bərpa olunmasa, ölkəni daha ciddi çətinliklər gözləyir.

Amma Ermənistan hakimiyyətinin anti-Rusiya mövqeyi, Rusiya prezidentinin ikinci prezident Robert Köçəryanın həbsinə açıq-aşkar mənfi münasibəti, Rusiya tərəfindən sabiq müdafiə naziri, general-polkovnik Mikayel Harutyunyan və keçmiş deputat Mihran Poqosyanın təhvil verilməməsi, eləcə də digər belə amillər münasibətlərdə normallaşmanın olacağını ciddi sual altına alır. Bunu erməni politoloq Qrant Məlik-Şahnazaryan da xüsusi olaraq vurğulayır. Politoloq qeyd edir ki, Ermənistan-Rusiya münasibətlərində mövcud olan ən vacib məsələlərə dair ötən il ərzində heç bir razılıq əldə olunmayıb. O qeyd edib ki, ötən il danışıqlar mərhələsində olan Ermənistan üçün vacib bir məsələnin havada qaldığını söyləmək olar: "2018-ci il də Paşinyanın Rusiyaya səfəri ilə başa çatdı, bundan sonra da hamı qazın satınalma qiyməti, Qarabağ məsələsi kimi sahələrdə yenilikləri olacağını gözləyirdi. Baş nazir görüşdən sonra yaxşı xəbərlərin olduğunu söylədi, amma bu yaxşı xəbərlər bütün il boyu səslənmədi". Ekspertin sözlərinə görə, Ermənistan - Rusiya münasibətlərində əhəmiyyətli bir prosesin olmadığını göstərən göstəricilər var. O, Rusiya prezidentinin Ermənistana da səfər etdiyini, lakin görüşdə vacib məsələlərin müzakirə olunmadığını xatırladıb:

"Təəssüf ki, digər narahatlıqlar da var, məsələn, Qarabağ münaqişəsinin həllində Rusiyanın hansı diplomatik dili tətbiq etdiyini görürük. Azərbaycan prezidenti Putinin iştirakı ilə Ermənistanı açıq şəkildə tənqid etdi, lakin heç bir cavab almadı və ya Rusiya üçün məqbul oldu". Rusiya xarici işlər naziri Sergey Lavrovun Qarabağın azərbaycanlı icmasının statusu məsələsinin qaldırılmasının lazım olduğunu söyləməsinə toxunan erməni politoloq bu cür açıqlamaların Ermənistan-Rusiya münasibətlərində narahatlığa səbəb olduğunu qeyd edib: "Ermənistan-Rusiya münasibətlərində ciddi iş aparılmasına ehtiyac var. Bu iki ölkə arasında heç vaxt belə bir etibarsızlıq olmayıb. Heç bir ciddi məsələnin həll olunmadığı və bunun dayandırıldığı kimi hal görünməmiş bir göstəricidir". Məlik-Şahnazaryan bildirib ki, hərbi əməkdaşlıq çərçivəsində bəzi irəliləyiş olub, lakin əvvəlki illərlə müqayisədə burada da azalma müşahidə olunub.

"2020-ci ildə danışıqların hansı mərhələlərini gözləmək olar", deyə verilən suala cavabında politoloq Ermənistanın əslində danışıqların dalana dirənməsi ilə üzləşdiyini və 2020-ci ildə gözləntilərinə imkan verməyən çox ciddi mövqeləri güzəştə getdiyini bildirib: "Ermənistan bu gün ciddi hərbi problemlə üzləşib və təəssüf ki, Paşinyan və onun xarici işlər nazirinin qeyri-peşəkar yanaşmaları müharibənin diplomatik dayandırılması mexanizmlərini məhv edir. Hətta dəfələrlə Azərbaycana müharibə başlamaq və erməni tərəfini günahlandırmaq fürsəti verilib. Düşünürəm ki, 2020-ci ildə müharibə təhlükəsi çox yüksəkdir".

Ermənistan-Rusiya danışıqlarına yekun vuran ekspert qeyd edib ki, hər şey əvvəlki razılaşmaların reallaşması üzərində qurulub və yeni müzakirələr yoxdur: "Ermənistan tərəfi danışıqlar zamanı xeyirxahlıq etməyə çalışır, lakin ən böyük problem Ermənistanın baş naziri və xarici işlər nazirinin vəziyyəti idarə etməkdən çox uzaq olmasıdır. Hətta onların iştirakı ilə anti-erməni bəyanatları səslənsə də, cavab vermir, təhlükəni başa düşmürlər. Rusiya Ermənistanın sadiqliyini sınamağa çalışır, amma bunun əvəzinə heç nə vermir". Digər ekspertlər də vurğulayır ki, Ermənistan siyasi, iqtisadi, hərbi və təhlükəsizlik baxımından yenə Rusiyadan asılı vəziyyətdədir. Məhz bu durumda Paşinyan iqtidarının Rusiya ilə münasibətləri pisləşdirməkdə davam etməsi Ermənistan üçün cari ildə daha böyük problemlərin yaranması anlamına gəlir. Baş verən son geosiyasi proseslərin inkişafı fonunda Ermənistanın siyasi mövqeyi də xeyli zəifləyib. Erməni ekspert Movses Keşişyan bildirir ki, xüsusən gərginləşən İran-ABŞ münasibətləri bölgədə Ermənistanın mövqelərinə ciddi zərbə vurur. Keşişyanın sözlərinə görə, İran tərəfi yalnız ABŞ maraqları kontekstində Vaşinqtonla masa ətrafında oturmağa hazır deyil: "İran tərəfi nüvə məsələsi çərçivəsində artıq oturub, bu məsələ uğurla irəliləyirdi, imtina edən və bu məsələdən çıxış edən Amerika tərəfi idi. İndi tərəflər arasında vəziyyət gərgindir. İrandakı istənilən dəyişilik bütün regiona, bütün Asiyaya, Əfqanıstana, hətta Afrikanın şimal hissələrinə, Misirə çatan bölgələrə təsir edəcək.

**Bütün bunlar Ermənistana da böyük təhlükələr gətirə bilər, bu qeyri-sabitlik sərhəd mənasında təhlükəli ola bilər, xalqın axınını, min bir növ inkişafı gözləmək olar. Bundan başqa, bizim Rusiya ilə münasibətlərimiz gərgindir. Bu vəziyyətdə İranla da əlaqələrin zəifləməsi bölgədə Ermənistanın mövqeyinə çox ciddi şəkildə mənfi təsir göstərəcək".**

***Tahir TAĞIYEV***

# Azərbaycan "qaz siyasəti" ilə Türkiyə, Rusiya və hətta ABŞ-ı bir araya gətirə bildi...

## *Enerji sektorunda Azərbaycan daha bir mühüm uğura imza atır*

**Dünya enerji bazarları uğrunda bu gün kifayət qədər sərt rəqabətin getməsi heç kimə sirr deyil. Məsələn, Avropanın enerji bazarında hələ də Rusiya və ABŞ arasında kəskin rəqabət hökm sürür. Eləcə də dünyanın enerji resurslarının mənimsənilməsində eyni prosesi müşahidə etmək olar.**

Amma bu vəziyyətdə Azərbaycanın həyata keçirdiyi enerji siyasəti ona beynəlxalq miqyasda tamam fərqli bir yanaşmanın sərgilənməsinə gətirib çıxarıb. Məsələn, istər ABŞ, istərsə də Rusiya Azərbaycanın Avropanın enerji bazarına çıxmasına hansısa maneələr yaratmır. Əksinə, ölkəmizin bu istiqamətdə fəaliyyəti dəstəklənir. Hətta qeyd olunan istiqamətdə Azərbaycanla rəqabət əvəzinə, əməkdaşlıq ön plana çıxır. Bunu Rusiya təbii qazını Türkiyə və bu ölkə üzərindən Avropaya nəql edəcək "Türk axını" qaz boru xəttinin açılışı fonunda da görmək olar.

Xatırladaq ki, artıq bu kəmər istismara hazır vəziyyətə gətirilib. "Türk axını" layihəsi üzrə tikinti işlərinə isə hələ 2017-ci ildə başlanıb. Bu qaz kəmərinin Qara dənizdən keçən qoşa xəttinin uzunluğu 930 kilometrdir. Boru kəmərinin birinci xətti Türkiyə bazarı üçün, ikincisi Cənubi və Cənub-Şərqi Avropa ölkələrinə qaz tədarükü üçün nəzərdə tutulub. Xətlərin hər birinin ötürücülük qabiliyyəti 15,75 milyard kubmetrdir. İndi həm Azərbaycanın çəkdiyi TANAP, həm də "Türk axını" rəqib yox, əməkdaşlıq formatında baş tutan layihələr kimi qiymətləndirilir. Xatırladaq ki, TANAP 2019-cu ilin sonlarında tam istismara verilib. Belə ki, noyabrın 30-da Türkiyənin Ədirnə şəhərinin İpsala qəsəbəsində TANAP-ın Faza-1 hissəsinin açılış mərasimi keçirilib. İpsala qəsəbəsi TANAP-ın MS4 ölçü stansiyasının yerləşdiyi və Avropaya Azərbaycan qazını nəql edəcək TAP-a birləşdirilən ərazidir. Qarşıdakı dövr ərzində isə Azərbaycan TANAP vasitəsilə Türkiyəyə daha çox qaz nəql etməyi düşünür. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulda "Türk axını" təbii qaz boru kəmərinin açılış mərasimindəki çıxışında da bu xüsusda bildirib ki, qarşıdakı illərdə TANAP-ın ötürücülük qabiliyyətinin əvvəlcə illik 24 milyard kubmetrə, daha sonra da 31 milyard kubmetrə çatdırılması planlaşdırılır: "Bir ay əvvəl bölgəmizin ən strateji boru kəmərlərindən biri olan TANAP-ı əziz qardaşım, Azərbaycan prezidenti İlham Əliyevlə birgə istifadəyə verdik. "Enerjinin İpək Yolu" adlandırılan TANAP-la ilkin mərhələdə ildə 16 milyard kubmetr Azərbaycan təbii qazı Türkiyə və Avropa istehlakçılarına çatdırılacaq".

Bu fonda Azərbaycanın yanaşması budur ki, TANAP və "Türk axını" təbii qaz kəmərləri bir-birinə rəqib deyil. Energetika naziri Pərviz Şahbazov bildirir ki, hər iki layihə bölgənin - həm Türkiyənin, həm də Cənub-Şərqi Avropanın enerji təhlükəsizliyinə xidmət edəcək: "Türk axını" layihəsinin TANAP-a alternativ olmasından söhbət gedə bilməz. Bu layihələr paralel olaraq həyata keçiriləcək. Hər ikisi bölgənin - həm Türkiyənin, həm də Cənub-Şərqi Avropanın enerji təhlükəsizliyinə xidmət edəcək". Elə Rusiya da məsələyə məhz bu prizmadan yanaşır. Hətta Rusiyanın Bakıdakı səfiri Mixail Boçarnikov qeyd edir ki, Rusiya qazı müəyyən mərhələdə Azərbaycanla Türkiyəni birləşdirən TANAP qaz kəməri ilə nəql oluna bilər: "Mən Azərbaycanı TANAP layihəsinin işə salınması münasibətilə təbrik etmək istəyirəm, bu böyük uğurdur. Azərbaycan bu layihəyə yatırım qoyub və indi onun bəhrəsini görməyə tam əsası var. Həm Azərbaycan, həm Rusiya neft-qaz ölkələridir. Və hər iki ölkə öz mineral ehtiyatlarını özü hasil edir. Hərçənd, biz burada da əməkdaşlıq edirik, mən Rusiya şirkətlərinin Azərbaycanın neft, qaz-kondensat yataqlarının işlənməsində iştirakını nəzərdə tuturam. Kim bilir, bəlkə bizim qaz da hansısa mərhələdə TANAP layihəsinə qoşulacaq, mən bunu istisna etməzdim".

Rusiya qazının TANAP vasitəsilə nəqlinin mümkünlüyünü Pərviz Şahbazov da istisna etmir. O qeyd edib ki, bu variant müəyyən mərhələlərdə mümkün olan ssenarilərdən biridir: "Hazırda bu barədə konkret nəsə demək çətindir. Düşünürəm ki, bütün ölkələrin istəkləri və imkanları olduqda mövcud infrastrukturdan istifadə etmək imkanı olacaq". Nazir həmçinin əlavə edib ki, Rusiya və Türkiyə arasındakı yeni qaz kəməri olan "Türk axını" region üçün önəmli layihədir və Azərbaycan əvvəldən bu layihəyə dəstəyini bildirib: "Biz düşünürük ki, bu layihə həm Rusiya, həm də Türkiyə üçün bir sıra məsələlərin həllində böyük rol oynayır. Bu layihə Türkiyənin enerji təhlükəsizliyini təmin etməyə, Türkiyənin iqtisadi inkişafına öz töhfəsini verir. Layihə Rusiya üçün də önəmlidir".



Nazir Azərbaycanın Türkiyə və Rusiya ilə əməkdaşlığından da danışaraq bildirib ki, Azərbaycan Türkiyə ilə enerji sahəsində böyük əməkdaşlıq həyata keçirir: "Azərbaycan bu günə qədər Türkiyədə ancaq enerji sektoruna 11,3 milyard dollar məbləğində investisiya yatırıb. SOCAR Türkiyədə ən böyük xarici sərmayədardır. Eyni zamanda, Azərbaycan və Türkiyə beynəlxalq əhəmiyyətə malik layihələr həyata keçirib və keçirməkdə davam edir. Türkiyədə "Petkim", STAR kimi layihələr həyata keçirilir. Bütün bunlar Azərbaycanla Türkiyənin enerji sahəsində əməkdaşlığına böyük töhfə verir. Bundan sonra da bir sıra layihələr həyata keçiriləcək. Azərbaycan Rusiya ilə də yaxın tərəfdaş ölkədir. Beləliklə, Türkiyə ilə Rusiya arasında həyata keçirilən layihələr, eləcə də Azərbaycanla Türkiyə arasında həyata keçirilən layihələr ölkələrin, regionun inkişafına xidmət edir. Düşünürəm ki, bu layihələr bu üç ölkənin iqtisadi inkişafına böyük töhfə verməkdədir".

***Nahid SALAYEV***

# Abşeron rayonunda məktəb yeri problemi - Prezidentin iradı prosesi yerindən qaldıracaq

**"Bəzi yerlərdə yeni məktəb tikintisi üçün yer tapa bilmirlər". Bunu Prezident İlham Əliyev Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsinə təyin etdiyi Anar Quliyevi qəbul edərkən deyib. Prezident qeyd edib ki, əhali artır, iqtisadi fəallıq, sənaye artır və artmalıdır:**

*"Abşeron rayonu Binəqədi qəsəbəsində sakinlərin məskunlaşma sayı çox olsa da, məktəb sayı olduqca azdır"*

**Kamran Əsədov:** *"Bakıətrafı kəndlərdə bir sinifdə ən azı 39-44 şagird təhsil alır"*



"Ona görə növbəti illərdə çox düşünülmüş addımlar atılmalıdır. Biz son illərdə 3200-dən çox məktəb tikmişik. Ancaq hələ də məktəblər var ki, orada uşaqlar üç növbədə oxuyurlar. Nəyə görə? Çünki əhali artır. Müstəqillik dövründə əhali üç milyon artıb. İndi bəzi yerlərdə yeni məktəb tikintisi üçün yer tapa bilmirlər. Ona görə mən tapşırıq vermişəm və aidiyyəti qurumlar bu işlərlə çox ciddi məşğuldurlar, xüsusilə Abşeron rayonunda - orada böyük problemlər var. Üç növbədə oxuyan uşaqlar var. İndi yeni məktəblər üçün yer axtarırıq və bu da çox ciddi bir prosesdir. Yəni artan əhali bütün infrastruktura artan yük deməkdir - həm nəqliyyata, həm sosial infrastruktura, həm də ictimai zonaların fəaliyyətinə".

Prezident çıxışı zamanı xüsusi olaraq vurğuladı ki, bəzi ərazilərdə məktəb tikintisi üçün yer tapılmır. Bu hal daha çox Abşeron rayonunda yaşanır.

Maraqlıdır, Abşeron rayonunda hansı məktəblərin vəziyyəti pisdir? Bu problemin həll olunması üçün nə kimi işlər görülməlidir?

Təhsil eksperti Kamran Əsədov bizimlə söhbətində qeyd etdi ki, hazırda ölkədə 4447 ümumtəhsil məktəbi var. Bu məktəblərdə 1,6 milyona yaxın şagird təhsil alır: "Statistik rəqəmlərə əsasən, dünya ölkələri ilə müqayisədə Azərbaycanda məktəblə təmin olunma 100 faizdir. Ancaq bu o demək deyil ki, şagirdlər geniş şəkildə məktəb infrastrukturundan istifadə edirlər. Şagird sıxlığı olan məktəblərin sayı az deyil. Bu hal daha çox Bakıətrafı qəsəbələrdə müşahidə olunur. Məsələn, Binə qəsəbəsində 6 məktəb var. Ancaq həmin ərazidə əlavə 3-4 məktəbə ehtiyac var. Eyni zamanda, Mərdəkan, Qala, Buzovna, Nardaranda, Abşeron rayonunda əlavə məktəblərin inşa olunmasına ehtiyac var. Məlumat üçün bildirim ki, Bakı şəhərində 320 orta məktəb var. Bu say 2 milyon sakin üçün nəzərdə tutulmuşdu. Ölkədə gedən iqtisadi inkişaf nəticəsində vətəndaşların sayı artıb, ancaq məktəblərin sayında o qədər də artım yoxdur".

Həmsöhbətimiz onu da əlavə etdi ki, bələdiyyələr və icra nümayəndələri torpaq sahələrini yaşayış sahəsi kimi satıb və ya istifadəyə veriblər. Bu zaman yaşayış sahələrinin həcmi çoxalsa da, orada qeyri-dövlət orqanlarının fəaliyyəti üçün yer qalmayıb. Abşeron rayonu Binəqədi qəsəbəsində sakinlərin məskunlaşma sayı çox olsa da, məktəb sayı olduqca azdır. Belə olan halda, həmin məktəblərdə şagird sıxlığı da müşahidə olunur. Məlumat üçün bildirim ki, Bakıətrafı kəndlərdə bir sinifdə ən azı 39-44 şagird təhsil alır. Belə olan halda, şagird ona başa salınan dərsi tam qavraya bilmir. Bu səbəbdən də həmin ərazidə heç olmasa bir və ya ikimərtəbəli məktəblərin tikilməsinə lüzum var".

***Günel CƏLİLOVA***

# Tikintilərə icazə icra hakimiyyətlərindən alınaraq Şəhərsalma və Arxitektura Komitəsinə verildi...

**Artıq tikintiyə icazəni rayon icra hakimiyyətləri deyil, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi verəcək. Prezident bu qərarı artıq təsdiqləyib. Prezident İlham Əliyev Anar Quliyevi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edərkən deyib ki, son vaxtlar xüsusilə Şəhərsalma və Arxitektura Komitəsinin rəhbərliyinin dəyişilməsi nəticəsində artıq bu qaydalara riayət edilməyə başlanıb:**

*"...ölkədə tikinti mədəniyyətinin formalaşmasına səbəb olacaq"*

**Nüsrət İbrahimli:** *"Əvvəlki dövrlərdə şəhərsalma qaydaları bəzi hallarda kobudcasına pozulurdu"*



"Komitəyə yeni funksiyalar verilib və komitənin razılığı olmadan heç bir bina tikilə bilməz. Rayon icra hakimiyyəti orqanları komitədən razılıq almadan heç bir binanın tikilməsinə icazə verə bilməzlər. Siz bu funksiyalardan çox səmərəli şəkildə istifadə etməlisiniz. Sizin nəinki Bakıda və böyük şəhərlərdə, bütün ölkə üzrə monitorinq qruplarınız olmalıdır. Çünki bəzi hallarda torpaqlar zəbt olunur və tələm-tələsik binalar tikilir. Sonra da bu binalar, evlər hansısa qanunsuz yollarla sənədləşdirilir və biz artıq fakt qarşısında qalırıq. Ona görə monitorinq qrupları olmalıdır. Bütün yerli icra orqanlarına bir daha tapşırıq verirəm ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəyi olmadan qətiyyən bir dənə də bina tikilə bilməz. Biz buna son qoymalıyıq".

Tikintiyə icazəni rayon icra hakimiyyətləri deyil, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin verməsi tikinti sahəsində nə kimi dəyişikliklərə səbəb olacaq?

Daşınmaz əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, tikintiyə icazəni rayon icra hakimiyyətləri deyil, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin verməsi ölkədə tikinti mədəniyyətinin formalaşmasına səbəb olacaq: "Məlumdur ki, icra hakimiyyətləri müəyyən vəsait qarşılığında tikintiyə uyğun olmayan ərazilərdə tikintiyə icazə verirdilər. Həmin tikililər də şəhərin görkəmini pis hala salırdı. Həmçinin, rayon icra hakimiyyətlərinə həvalə edilmiş pilot layihələri ya yarımçıq icra edirdilər, ya da özlərinə sərf edən formada".

Həmsöhbətimiz hesab edir ki, tikintiyə icazənin komitə tərəfindən verilməsi tikinti sektorunda müsbət dəyişikliklərə səbəb olacaq. Xüsusilə də Bakı şəhərində yaşanan tikinti xaosuna son qoyulacaq: "Məlumdur ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi son iki ildə tikinti şirkətləri qarşısında bəzi şərtlər qoymuşdu. Tikinti normasına cavab verməyən şirkətlər tenderə buraxılmırdı. Hesab edirəm ki, bu qərar tikinti mədəniyyətinin və standartının formalaşmasına səbəb olacaq".

İqtisadçı onu da vurğuladı ki, əvvəlki dövrlərdə şəhərsalma qaydaları bəzi hallarda kobudcasına pozulurdu: "Bakının müxtəlif yerlərində tarixi keçmişimizə zidd olan, heç bir memarlıq standartına uyğun olmayan yöndəmsiz və eybəcər binalar tikilirdi. O binalar elə tikilirdi ki, həm ümumi mənzərəyə ziyan vururdu, həm də orada heç bir şəhərsalma əmsalı nəzərdə tutulmurdu".

***Günel CƏLİLOVA***

# Azərbaycan dünyanın 10 məşhur "macəra turizmi" ölkəsi sırasında...

**Qeyri-neft sektorunun ən mühüm qollarından biri sayılan turizmin inkişafı istiqamətində atılan addımlar artıq öz müsbət nəticələrini verir. Məhz bunun nəticəsidir ki, Azərbaycana gələn turistlərin sayında dinamik artım qeydə alınır.**

Təbi ki, bu hal ölkə iqtisadiyyatına, xüsusən də xidmət sektoruna mühüm təsirlər göstərir.

Hesab olunur ki, növbəti illər ərzində də turizm Azərbaycan iqtisadiyyatının ən vacib inkişaf istiqamətlərindən biri olaraq qalacaq. İlk növbədə o baxımdan ki, bu məqam dünya iqtisadiyyatının özünün prioritetləri sırasında yer alır. Ümumdünya Turizm Təşkilatının proqnozlarına əsasən, beynəlxalq turizm sənayesinin davamlı inkişafı nəticəsində xarici turistlərin sayı ildə orta hesabla 43 milyon nəfər artmaqla, 2030-cu ilədək 1,8 milyard nəfərə çatacaq. Yeni yaranmış turizm mərkəzlərində xarici turistlərin sayı ənənəvi turizm mərkəzləri ilə müqayisədə 2 dəfə çox olacaq. Proqnozlardan da aydın görünür ki, turizmin iqtisadiyyatdakı çəkisinin əhəmiyyəti çoxdur. Bu mənada, Azərbaycan yeni turizm mərkəzlərindən biri kimi getdikcə turistlərin diqqətini daha çox cəlb edir. Xüsusən də Bakıda, eləcə də son illərdə ayrı-ayrı bölgələrdə müasir tələblərə cavab verən istirahət mərkəzlərinin, otellərin inşası, yol-nəqliyyat infrastrukturunun yaradılması xarici turistlərin ölkəmizə marağını artırıb. Bundan əlavə, ölkəmizin coğrafi mövqeyi, iqlim şəraiti, mədəni-tarixi irsi və digər belə məqamlar da turizmin inkişafı üçün böyük perspektivlərə yol açan amillərdəndir. Bunun nəticəsidir ki, ötən il Azərbaycana səfər edən xarici vətəndaşların sayı 3.17 milyon nəfər təşkil edib ki, bu da 2018-ci ilin eyni dövrü ilə müqayisədə 11.4% artım deməkdir. Artımın qeyd olunduğu əsas istiqamətləri Rusiya, Gürcüstan, İran, Türkiyə, eyni zamanda Asiya və Avropa ölkələri təşkil edir. Avropa ölkələrindən Azərbaycana gələnlərin sayı ötən ilin yanvar-dekabr dövründə 224 min nəfər təşkil edib ki, bu da 2018-ci ilin yanvar-dekabr dövrünə nisbətdə 14.7% artım hesab olunur. Bu arada bir mühüm məqamı da qeyd edək ki, Azərbaycan macəra sevənlər üçün on ən yaxşı ölkənin siyahısına daxil edilib. Belə ki, Britaniya Səyahətçilər Birliyinin mütəxəssisləri 2020-ci ildə macəra turizminin inkişafı üçün ən böyük potensialı olan ölkələrin adlarını açıqlayıb.

Birinci yerdə Əlcazair qərarlaşıb. İkinci yerdə Səudiyyə Ərəbistanı, üçüncü yeri isə Pakistan tutur. Macəra sevənlərin reytinqində Azərbaycan doqquzuncu yeri tutub. İlk onluğa isə İran, Özbəkistan, Qazaxıstan, Bosniya və Herseqovina, Rusiya və Həbəşistan daxil edilib. Qeyd edilir ki, reytinq hazırlanarkən infrastrukturun inkişaf səviyyəsi, təbii və tarixi yerlər, qonaqpərvər yerli sakinlər, nisbətən az sayda turist, məscidlər, Şərq bazarları, Roma, Osmanlı, ərəb və Bizans tarixinin mədəni obyektləri kimi parametrlər nəzərə alınıb. Bu vəziyyətdə Azərbaycanın ilk onluqda yer alması ölkəyə turist marağını daha da artırır. Eyni zamanda, yaranmış durum Azərbaycan iqtisadiyyatının tərəqqisinə öz təsirini göstərir və bu hal regionlarda da özünü qabarıq surətdə büruzə verməyə başlayır. Kənd turizminin son illərdə sürətli inkişafı da elə bunun nəticəsidir. İndi ölkəmizdə kənd evlərinin turizmə cəlb edilməsi təcrübəsi geniş yayılıb. Amma təbii ki, bu istiqamətdə hələ də müəyyən addımların atılması vacibdir. Turizm üzrə ekspert Müzəffər Ağakərimov da bildirir ki, kənd turizmini inkişaf etdirmək, kənd evlərini turizmə cəlb etmək üçün öncə turizmin inkişaf etdiyi ərazilərə yaxın kəndlərdə infrastruktur qurulmalıdır. O vurğulayır ki, görüləcək ilk iş kənd yollarının təmir olunmasıdır:"Turizmin inkişaf etdiyi ərazilərdə kəndlərin yolları abad olmalıdır. Əks halda, baha olsa da, turist məcbur olub oteldə qalacaq. İkinci vacib məsələ turizmin inkişaf etdiyi ərazilərdə su, qaz və kanalizasiya xətlərinin çəkilişidir. Unutmaq olmaz ki, turisti ucuzluqla yanaşı maraqlandıran daha bir əsas məsələ qalacağı evin rahatlığıdır. Bundan əlavə, kənd evləri arasında qiymətləndirmə aparılmalıdır. Hər evi kənd turizminə cəlb etmək olmaz. Turizmin inkişaf etdiyi ərazilərə yaxın kəndlərdə sanitar gigiyenik və qida təhlükəsizliyi məsələlərini də diqqətdə saxlamaq lazımdır. Xüsusilə kənd evlərində sanitar qovşaqların vəziyyəti, turistə təklif edilən qidaların keyfiyyəti vacib məsələdir". Artıq Dövlət Turizm Agentliyi bu istiqamətdə işlər görür. Bu günlərdə kənd yerlərində evlərini turistlərə kirayə verən sahibkarlarla görüş keçirilib. Görüşün əsas məqsədi kənd evi sahiblərinin təklif və problemlərini dinləmək, bu sahədə mövcud boşluqları müəyyən etmək və aradan qaldırılması istiqamətində dəstək göstərmək olub. Bundan əlavə, regionlarda otellərin sayının artması, hostellərin yaradılması da prosesə müsbət təsir göstərir. Belə vəziyyət regionlarda işsizlik amilinin daha sürətlə aradan qalxmasına mühüm təkan verir. Digər tərəfdən, turizmin dinamik inkişafı Azərbaycanın valyuta gəlirlərinin yüksəlməsinə də öz töhfəsini verir. Qiymətləndirmələr göstərir ki, turistlərin Azərbaycanda xərclədiyi vəsaitin həcmi artıq milyardlarla dollar həcmində ölçülür. Turist sayının artması isə bu vəsaitin miqdarının daha da çoxalacağı anlamına gəlir.



***Ramil QULİYEV***

# Kənd Təsərrüfatı Nazirliyi "450 min fermer" rəqəminə şübhələri doğru saymadı

**Firudin Tağıyev:** *"Biz hər bir torpaq sahibi olanı fermer kimi qeydiyyata alırıq"*

**Yanvarın 9-da qəzetimizdə "Azərbaycanda 450 min fermer? - Az qala hər məntəqəyə 100 fermer düşür... Şübhələrin qaynaqları..." adlı yazı dərc olunub. Yazıda elektron hökumət portalında qeydiyyatdan keçən 449 259 fermerlə bağlı təhlil aparılıb.**

*"Burada birinci torpaq islahatı nəticəsində dövlət aktı əldə etmiş vətəndaşlardan başqa, islahata qədər torpaq əldə etmiş subyektlər də var"*

Qeyd edilib ki, 65 rayonu və 4354 kəndi olan bir ölkədə 450 minə yaxın fermerin olması real görünmür. Bununla bağlı müxtəlif arqumentlər ortaya qoyulub. Çünki Azərbaycanın ərazisi o qədər də böyük deyil. Bundan başqa, ölkə ərazisinin 20 faizi işğal altındadır. Azərbaycanda göstərildiyi qədər fermerin olmasını ekspertlər də birmənalı qarşılamayaraq buna şübhə ilə yanaşıblar.

Yazı ilə əlaqədar Kənd Təsərrüfatı Nazirliyinin rəsmisi qəzetimizə müraciət edib. Belə ki, "Bakı-Xəbər"lə əlaqə saxlayan Kənd Təsərrüfatı Nazirliyinin Torpaqdan istifadəyə nəzarət şöbəsinin müdürü Firudin Tağıyev fermerlərin sayı ilə bağlı rəqəmə aydınlıq gətirdi. Onun sözlərinə görə, 16 iyun 1996-cı ildə Azərbaycanda "Torpaq islahatı haqqında" Qanun qəbul olunduqdan sonra kütləvi şəkildə ölkədə 2030-dan çox kolxoz və sovxoz ləğv edilərək islahat aparıldı: "Nəticədə 860 mindən çox ailə və subyekt olaraq 3 milyon 400 mindən çox şəxs torpaq payına sahib oldu. Deməyim odur ki, 860 minin fonunda 450 min fermerin qeydiyyatdan keçməsi elə də böyük rəqəm deyil. Biz hər bir torpaq sahibi olanı fermer kimi qeydiyyata alırıq, amma bu onların əkinçiliklə məşğul olması demək deyil. Yəni qeydiyyatdan keçən gələn il də əkin əkə bilər, 3 ildən sonra da bu işlə məşğul olar. Burada əsas götürülür əkin bəyanları. Məsələn, bizim əkin bəyanları yenilənir, həcmi artır. Müqayisə üçün qeyd edim ki, 450 mindən 316 mini təsərrüfat fəaliyyəti barədə elektron formada



məlumat verib. Yəni bu adamlar əkdiklərini bəyan ediblər, subsidiya almaqla bağlı müraciət olunub. Deməyim odur ki, 450 min arta da bilər. Çünki burada birinci torpaq islahatı nəticəsində dövlət aktı əldə etmiş vətəndaşlardan başqa, islahata qədər torpaq əldə etmiş subyektlər də var.

**Hansı ki, bunlar əvvəlki dövlət aktları ilə torpaq əldə ediblər. Onlar da bu sistemdə qeydiyyatdadırlar. Bizim məqsədimiz həm də statistikanı təkmilləşdirməkdir. Biz hazırda elektron sistemdə qeydiyyata düşmüş sənədlər üzrə təhlillər aparırıq. Sonda bu sənədlər hökumətə təqdim olunacaq. Deməyim odur ki, subsidiyaların elektron formada verilməsi şəffaflığa xidmət edir".**

***Vidadi ORDAHALLI***

# VTB Bankın müştəriləri ilə 200 manat mübahisəsi...

**Əli Əlirzayev:** *"...bank sektorunun qısa müddətdə sağlamlaşdırılmasına ehtiyac var"*

**Məlumatlara görə,VTB Bank xarici valyutada olan krediti manata çevirmək üçün vətəndaşlardan əlavə pul istəyir. Şikayətçi bildirir ki, o, 2014-cü ildə VTB Bankdan xarici valyuta ilə (rublla) kredit götürüb: "Kreditin məbləği 350 min rubl idi.**

*"Vətəndaş xarici valyutada olan kreditini yeni məzənnə ilə ödəyibsə, ona kompensasiya verilməlidir"*

Birinci və ikinci devalvasiyadan sonra kredit faizləri daha da artdı və ödənişi dayandırdım. Götürdüyüm kredit 8 min manata yaxınlaşdırdı. Prezidentin 10 min manata qədər xarici valyuta ilə götürülən kreditlərlə bağlı sərəncamından sonra ötən ilin sonlarında VTB Banka yaxınlaşdım. Kreditin məlum sərəncama uyğun olaraq 2020-ci ilin yanvar ayından manata çevriləcəyini və güzəşt tətbiq olunacağı qeyd edildi. Amma bank bunun üçün məndən 200 manat əlavə ödəniş tələb etdi. Belə çıxır ki, Prezidentin sərəncamına düşmək üçün banka əlavə pul ödəməliyəm və bundan sonra kreditim manata çevriləcək".

Məsələ ilə bağlı VTB Bankla əlaqə saxlamağa çalışdıq. Lakin bankın səlahiyyətli nümayəndəsi ilə danışmaq mümkün olmadı.

İqtisadçı-ekspert Əli Əlirzayev qeyd etdi ki, Prezidentin fevralın 28-də imzaladığı məlum fərmanı iki hissədən ibarətdir: "Birinci hissəyə əsasən, əgər vətəndaş xarici valyutada olan kreditini yeni məzənnə ilə ödəyibsə, ona kompensasiya verilməlidir. Şikayətdən belə başa düşürəm ki, vətəndaş ödəniş etməyib və buna görə də kompensasiya tələb etmir.

Bu halda fərmanın ikinci hissəsi dövriyyəyə keçir. Fərmana görə, vaxtı keçmiş kreditin məbləği 10 min dollar, manatla isə 17 min manata qədərdirsə, restrukturizasiya olunur. Fərmanda vaxtı keçmiş kreditlər üzrə 1 faizlə 5 illik müqavilə bağlanması banklara tövsiyə edilir. Yəni Prezidentin məlum fərmanında kreditin milli valyutaya çevrilməsi nəzərdə tutulmur. Fərmanın birinci və




ikinci hissəsi arasındakı fərq ondan ibarətdir ki, kompensasiya məsələsi banklar üçün məcburidir. Fərmanın ikinci hissəsi isə banklara tövsiyə olunur.

Yəni bank fərmanın ikinci hissəsindən irəli gələn məsələni icra edə də, etməyə də bilər. Prinsipcə, borc məbləğindən öncədən müəyyən ödəniş də tələb edə bilər. Söhbət bundan gedirsə, hesab etmirəm ki, bank fərmanı pozub. Bəzən vətəndaşlar fərmanda görmək istədiklərini görürlər. Amma fərmanda kreditin milli valyutaya keçirilməsi barədə heç nə yoxdur".

**Həmsöhbətimiz onu da əlavə etdi ki, banklar bəzən vətəndaşlardan əlavə gəlir əldə etmək istəyirlər. Bu kimi problemlərin həll olunması üçün bank sektorunun qısa müddətdə sağlamlaşdırılmasına ehtiyac var.**

***Günel CƏLİLOVA***

**Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Anar Quliyevi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edib.**

# Bəs deyirdiniz seçkilərə gedəcəksiniz, şou-biznesçilər...



***Afaq Bəşirqızı:** "Deputatlıq heç fikrimdən də keçməyib, bu, saytların istəyi idi, mən də onlara kobudluq etmirdim"*

***Faiq Ağayevin köməkçisi:** "Bu dəfə namizədliyini vermədi, inşallah, gələn dəfə verər"*

***Elza Seyidcahan:** "Artıq namizədliyim qeydə alınıb"*

Azərbaycan parlamenti buraxılar-buraxılmaz, bir sıra insanlar, o cümlədən də şou müğənniləri, aparıcılar, bəzi sənət adamları, hətta açıq-saçıq səhnələrlə gündəmə gələn aktrisa-modellər fevralın 9-da keçiriləcək növbədənkənar parlament seçkilərində iştirak edəcəklərini bəyan etdilər. Hətta bir çoxu seçki kampaniyasının elan ediləcəyi günü gözləməyib əvvəlcədən təbliğata başladılar.

Bu şəxslər sosial şəbəkələrdə, ayrı-ayrı sosial media platformalarında çıxışlar edir, deputatlıq iddialarını ortaya qoyur, xalqın onlardan "parlament seçkilərində iştirak etməyi tələb etdiyini" bəyan edirdilər. Onu da deyək ki, bir çox şou müğənniləri və aktrisaların sosial şəbəkələrdə müxtəlif insanlar tərəfindən yönəldilən xüsusi təbliğat qrupları, səhifələri də yaradılmışdı. Bu səhifələrdə həmin şəxslərin deputatlığa namizədlikləri təşviq edilir, dəstəklənirdi. Xalq artistləri Afaq Bəşirqızı, Faiq Ağayev, Əməkdar artist Elza Seyidcahan, müğənni-aktrisa Pərvin Abıyeva, şoumen Tolik, teleaparıcı və aktrisa Könül Yusifqızı və başqaları millət vəkili olmaq istəklərini açıqlamışdılar.

Növbədənkənar parlament seçkilərində iştirak etmək üçün deputatlığa namizədlərin qeydiyyatı artıq yanvarın 10-da, saat 18:00-da başa çatır. Əməkdar artist Elza Seyidcahan istisna olmaqla, digər sənətçilər növbədənkənar parlament seçkilərində iştirak üçün müraciət etməyiblər. E.Seyidcahanın isə artıq namizədliyi təsdiqlənib.

Qeyd edək ki, bir müddət əvvəl seksual səhnə obrazı ilə seçilən, açıq sözlü teleaparıcı və aktrisa Könül Yusifqızı da deputat olmaq niyyətini ortaya qoymuşdu. Bu barədə o, şəxsi "Facebook" hesabında məlumat paylaşmışdı: "Dostlar, hazırlaşın, deputatlığa namizədliyimi irəli sürürəm. Varmı dəstəkləyənlər?" Bundan sonra o, saytlardan birinə "Tam ciddi bir şəkildə deputatlığa dair namizədliyimi irəli sürmək niyyətindəyəm. Düşünürəm ki, mənim kimi açıq fikirli, tam çılpaq danışmağı bacaran, azad ruhlu bir insana orada ehtiyac var. Hərçənd ki, seçiləcəyimə gümanım azdır. Amma seçildiyim halda bir daha bizim ölkəmizdə bu, azad səsin və demokratiyanın sübutu olacaq" - deyə bildirib.

Lakin K.Yusifqızının deputatlığa namizədliyini vermədiyi bildirilir.

Xalq artistləri Faiq Ağayevin və Afaq Bəşirqızının da növbədənkənar parlament seçkilərində iştirak etmədiyi məlum olub. Deputat olmaq iddialarını dəfələrlə ortaya qoyan və bununla bağlı saysız müsahibə, açıqlamalar verən sənətçilər namizəd kimi seçkilərə qatılmayıblar. Dekabrın əvvəlində mətbuata müsahibəsində parlament seçkilərində iştirakla bağlı son qərarını açıqlayan Xalq artisti Afaq Bəşirqızı "Heç vaxt vəzifədə, kresloda gözüm olmayıb. Amma son günlər sosial şəbəkələrdə deputatlığa namizəd olmağımla bağlı gedən müzakirələri izləyirəm. Hiss edirəm ki, illərdir sənət naminə gördüyüm işlər, hər zaman xalqımın, dövlətimin yanında olmağım cavabsız qalmayıb. İnsanlar mənim namizəd olmağıma yetərincə müsbət yanaşırlar. Əgər belədirsə, mən də onların Milli Məclisdə səsi olmağa müsbət yanaşıram. İstərdim ki, onların problemlərinin həllində, daha yuxarı instansiyalara çatdırılmasında yaxından iştirak edim" - deyə bildirmişdi. Bundan əlavə, o qeyd etmişdi ki, hələ namizəd olacağı dairəni müəyyənləşdirməyib: "...Hələlik hansı dairədən namizəd olacağımı dəqiqləşdirməmişəm. Amma dairə seçimi barədə tam qərarsız da deyiləm. Çox güman ki, yaxın günlərdə namizəd olacağım dairəni də açıqlayacağam"...

2020-ci ilin fevral ayının 9-da keçiriləcək növbədənkənar parlament seçkilərində iştirak edəcəyini dəfələrlə açıqlayan A.Bəşirqızı ilə əlaqə saxlayıb parlament seçkilərinə hansı səbəbdən qatılmadığını soruşduq. A.Bəşirqızının cavabı çox qəribə oldu. O, əvvəlki fikirlərinin tam əksi olaraq bildirdi ki, heç vaxt deputat olmaq iddiası və arzusu olmayıb.

"Afaq xanım, siz son zamanlar dəfələrlə bildirmisiniz ki, parlament seçkilərində iştirak edəcəksiniz, Milli Məclisdə sənət adamlarının səsinə çevriləcəksiniz. Bu gün isə tamam fərqli bir fikir bildirirsiniz. Fikrinizi niyə təkzib edirsiniz" sualına cavabında A.Bəşirqızı bildirdi ki, onun deputatlığa namizədliyinin irəli sürülməsinin təşəbbüskarı özü deyil, bir sıra saytlar olub: "Mən heç vaxt deputat olmaq fikrində olmamışam. Mən, zatən, millətin vəkiliyəm. Deputatlıq heç fikrimdən də keçməyib, bu, saytların istəyi idi, mən də onlara kobudluq etmirdim. Saytlar mənim haqqımda xəbərim olandan da, olmayandan da yazırlar həmişə. Müəyyən saytlar vardı ki, onlar məni namizəd kimi görürdülər. Amma mən deputatlığa namizəd olmaq haqda düşünməmişəm".

Növbədənkənar parlament seçkilərində iştirak edəcəyini bəyan edən Xalq artisti Faiq Ağayevin Azər adlı köməkçisi bildirdi ki, F.Ağayevin növbədənkənar parlament seçkilərində iştirak etmək niyyəti olsa da, bu qərardan imtina edib. "F.Ağayev 2020-ci il fevralın 9-da keçiriləcək növbədənkənar parlament seçkilərində iştirak üçün namizədliyini irəli sürmədi. Bunun səbəblərini bilmirəm, bunu özü bilir. Bu dəfə namizədliyini vermədi, inşallah, gələn dəfə verər" - deyə o qeyd etdi.

2015-ci ildə keçirilən parlament seçkilərində də namizədliyini irəli sürən Əməkdar artist Elza Seyidcahan isə həmkarlarından fərqli olaraq, növbədənkənar parlament seçkilərində namizədliyini irəli sürüb və onun namizədliyi təsdiqlənib.

E.Seyidcahan "Bakı-Xəbər"ə bildirdi ki, o, 54 saylı Şabran-Siyəzən seçki dairəsindən millət vəkilliyinə namizədliyini irəli sürüb: "Artıq namizədliyim qeydə alınıb. Mənim parlament seçkilərində iştirakım təsdiqlənib. Amma hələlik bu barədə heç nə danışmaq istəmirəm. Bu haqda yanvarın 17-dən sonra danışmaq olar. Çünki təbliğat-təşviqat o tarixdən başlayır. İstəsəniz seçki məntəqəsinə də gələ bilərsiniz və orada hər şeyi özünüz görüb yazarsınız. Diqqətinizə görə çox sağ olun".

***İradə SARIYEVA***

# Azərbaycan təhsil sistemində yeni nəzarət strukturu - Agentlik nə edəcək...

**Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 dekabr 2019-cu il tarixində verdiyi fərmanla Təhsildə Keyfiyyət Təminatı Agentliyi yaradılıb.**

Belə ki, Prezident "Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli, 479 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Fərman imzalayıb.

Fərmana əsasən, Təhsil Nazirliyinin tabeliyində olan Akkreditasiya və Nostrifikasiya İdarəsi Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu olan Təhsildə Keyfiyyət Təminatı Agentliyinə çevrilmə yolu ilə yenidən təşkil ediləcək. Fərmanla Təhsildə Keyfiyyət Təminatı Agentliyinin Nizamnaməsi təsdiqlənib.

Qeyd edək ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təhsilin keyfiyyəti başlıca strateji prioritet elan olunub. Sənəddə ölkəmizdə keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan təhsil sisteminin formalaşdırılması məqsədilə təhsilin keyfiyyətini ölçən göstəricilər sisteminin təkmilləşdirilməsi və təhsilin maliyyələşdirilməsinin onun keyfiyyətinə yönəldilməsi kimi hədəflər öz əksini tapıb.

Göstərilən hədəflərə nail olunması və mövcud tələblərə cavab verən effektiv keyfiyyət təminatı sisteminin formalaşdırılması üçün ölkəmizin beynəlxalq səviyyədə üzərinə götürdüyü öhdəliklərə uyğun təşkil olunmuş təhsildə keyfiyyət təminatı sisteminin yaradılması zəruridir. Sadalanan tədbirlərin həyata keçirilməsi Azərbaycanın təhsil müəssisələrinin beynəlxalq reytinqlərdə irəliləməsinə və dövlət büdcəsindən kadr hazırlığı üçün ayrılan vəsaitin səmərəli və məqsədyönlü şəkildə istifadə olunmasına xidmət edəcək.

Təhsildə Keyfiyyət Təminatı Agentliyinin yaradılması Azərbaycan təhsilinin inkişafına nə kimi müsbət təsir edəcək? Bu agentlik hansı zərurətdən yaranır?

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov hesab edir ki, bu agentliyin yaradılmasına böyük zərurət vardı və həmin qurumdan gözləntilər çoxdur. "Ölkə başçısının fərmanı ilə Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusunda artıq yeni bir qurum yaradıldı. Əslində, bu qurumun yaradılması gözlənilən idi. Çünki bundan əvvəl ölkə başçısı Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasını imzalamışdı. Strategiyada təhsilin keyfiyyəti başlıca strateji hədəf olaraq götürülüb. Bu strategiyadan irəli gələrək xüsusilə təhsil sistemində təhsilin keyfiyyətinə təminat verə biləcək bir qurumun yaradılması olduqca zəruri idi. Dövlət başçısının təhsillə bağlı həyata keçirdiyi siyasətin əsas motivi təhsilin keyfiyyətinin yüksəldilməsi, təhsildə keyfiyyətin təmin olunmasıdır. Həm Təhsilin inkişafı üzrə Dövlət Strategiyasının qəbul edilməsi, həm də agentliyin yaradılması ölkə başçısının Azərbaycan təhsilinə olan yüksək münasibətinin təzahürüdür. Azərbaycan artıq yeni inkişaf mərhələsinə qədəm qoyub. Bilirsiniz ki, həm regionların, həm paytaxtın inkişaf etdirilməsi ilə bağlı müxtəlif müddətli dövlət proqramları qəbul edilir, həm bütövlükdə Azərbaycanın təhsil sistemi, onun infrastrukturu, kadr bazası yeniləşir. Bütövlükdə isə Azərbaycanın inkişafı dedikdə burada təhsilin inkişaf etdirilməsi çox vacibdir. Regionların inkişafı dedikdə bura yalnız yol infrastrukturu, körpülərin salınması, tikinti-quruculuq işlərinin aparılması, su-qaz, işıq xətlərinin çəkilməsi və s. deyil, həm də təhsilin inkişafı, yeni təhsil müəssisələrinin qurulması, təhsil infrastrukturunun formalaşdırılması daxildir. İndiyə qədər bu sahədə görülən bütün işlərin davamı olaraq və Azərbaycanın inkişaf tempinə müvafiq olaraq təhsildə keyfiyyətin təminatını şərtləndirən, bunu həyata keçirən aidiyyəti qurumun yaradılmasına ciddi ehtiyac vardı. Düşünürəm ki, bu qurum nəzərdə tutulmuş işləri layiqincə həyata keçirəcək, çünki artıq Təhsil Nazirliyində təhsilin keyfiyyətinin artırılması, aşkarlığın, şəffaflığın təmin olunması ilə əlaqədar çox ciddi işlər gedir. Ardıcıl olaraq həyata keçirilən proqramlar, görülən işlər ona yönəlib ki, Azərbaycan, eyni zamanda, təhsil ölkəsinə çevrilsin, ölkəmizin inkişafı həm də təhsillə, elmlə bağlı olsun".

İ.Orucov hesab edir ki, agentliyin yaradılması Azərbaycanın elm, təhsil tutumlu bir ölkəyə çevrilməsini də şərtləndirən əsas amillərdən biridir. O, həmçinin, vurğuladı ki, bu qurumun yaradılması həm də Azərbaycanda yeni kadr bazasının formalaşdırılmasına, idarəetmənin şaxələndirilməsinə təkan verəcək. "Əlbəttə, hesab edirəm ki, Təhsildə Keyfiyyət Təminatı Agentliyinin çox vacib işləri, hədəfləri olacaq. Bu qurumun Təhsil Nazirliyinin tabeliyində olmaqla yanaşı, həm də hüquqi publik şəxs olması isə onun əlavə vəsaitlər qazanmasına da gətirib çıxaracaq. Bu agentliyin nizamnaməsinə nəzər salmaq kifayətdir ki, onun görəcəyi işlərin sırasını əvvəlcədən proqnozalaşdıra bilək. Təhsildə Keyfiyyət Təminatı Agentliyi ölkəmizdə özəl və dövlət mülkiyyət formasından asılı olmayaraq, bütün təhsil müəssisələrinin akkreditasiyanı həyata keçirəcək. Eyni zamanda, xarici dövlətlərin Azərbaycanda təhsil sahəsində həm ixtisasların tanınması, həm onların nostrifikasiyası, xarici ölkələrdə təhsil alan Azərbaycan vətəndaşlarının diplomlarının, sənədlərinin tanınması məsələsi də agentliyin səlahiyyətlərinə aiddir. Peşə təhsili ilə bağlı bilik və bacarıqların qiymətləndirilməsi, hətta müvafiq imtahanların həyata keçirilməsi və s. bura aiddir. Bütövlükdə, agentliyin xeyli geniş məqsəd və hədəfləri var".

İ.Orucov qeyd etdi ki, keçən ilin sonunda Təhsil naziri ilə görüşdə də təhsilin bütün pillələrinin inkişafının həyata keçirilməsinin gündəmdə olduğu qeyd edilib. Bu sahədə çox ciddi məqsəd ortaya qoyulduğunu deyən İ.Orucovun sözlərinə görə, bu işlərin həyata keçirilməsində ən mühüm rollardan birini yeni yaradılan agentlik oynayacaq.

***İradə SARIYEVA***

***İlqar Orucov:*** *"Təhsildə Keyfiyyət Təminatı Agentliyi ölkəmizdə özəl və dövlət mülkiyyət formasından asılı olmayaraq, bütün təhsil müəssisələrinin akkreditasiyasını həyata keçirəcək"*




*"Bu qurumun Təhsil Nazirliyinin tabeliyində olmaqla yanaşı, həm də hüquqi publik şəxs olması isə..."*

**Ölkəmizə müxtəlif ölkələrdən, xüsusən də qonşu respublikalardan qanunsuz yollarla tütün məmulatları, spirtli içkilərin gətirilməsi halları ilə bağlı müxtəlif faktlar mövcud olub. Bu gün də sözügedən məsələ çox aktualdır. Gürcüstandan Azərbaycana bu ölkədə kustar üsulla hazırlanan spirtli içkilərin gətirilməsi halları illərdir ki, mövcuddur.**

# Kütləvi canlar alan spirtli içkiləri Gürcüstandan Azərbaycana kimlər və necə gətirib...

***Eyyub Hüseynov:** "Gürcüstandan Azərbaycan ərazisinə kustar yollarla hazırlanan içkilərin qaçaqmalçılar tərəfindən keçirilməsi..."*



Hətta bir neçə gün əvvəl qeyd etdiyimiz 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl bayramında da bir sıra vətəndaşların bayram süfrəsində Gürcüstandan gətirilən həmin içkilər olub. Məlumatlara görə, kustar üsulla hazırlanan və qanunsuz yollarla ölkəmizə gətirilən bu içkilərdən zəhərlənənlər də, narahatlıq keçirənlər də olub.

Qeyd edək ki, Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) ictimaiyyətlə əlaqələr şöbəsindən həm yerli saytlarda, həm də sosial şəbəkələrdə kustar üsulla Gürcüstanda hazırlanan və ölkəmizə gətirilən təhlükəli spirtli içkilərlə bağlı xəbərdarlıq da yer alıb. Vətəndaşlarımızı ehtiyatlı olmağa çağıran qurum rəsmiləri vurğulayıb ki, kustar üsulla hazırlanan spirtli içkilərdən istifadə Gürcüstanda bədbəxt hadisələrin yaşanmasına səbəb olub. "...Bayram günlərində vətəndaşlarımızın ən çox üz tutduğu ölkələrdən biri olan Gürcüstanda kustar üsulla hazırlanmış spirtli içkilərdən kütləvi zəhərlənmə halları artıb...Ölkəmizdə də bayram ərəfəsində kustar üsulla spirtli içki hazırlayıb insanların sağlamlığı və həyatı bahasına qazanc əldə etməyə çalışan cinayətkarlara rast gəlirik. Bu kimi hallarla bağlı bayram günlərində də əməkdaşlarımız tərəfindən ictimai-iaşə obyektləri və satış müəssisələrində mütəmadi reydlər keçirilib və aşkarlanan faktlarla bağlı qanunmüvafiq tədbirlər görülüb. Aparılan reydlər və görülən tədbirlər barədə qarşıdakı günlərdə ətraflı məlumat verəcəyik"-deyə AQTA-dan bildirilib.

Kütləvi canlar alan spirtli içkiləri Gürcüstandan Azərbaycana kimlər və necə gətirib?

"Azad İstehlakçılar" İctimai Birliyinin sədri Eyyub Hüseynov bakixeber.com-a bildirdi ki, AQTA-nın narahatlığı və əhalini xəbərdar etməsi əsassız deyil. E.Hüseynov qeyd etdi ki, bu gün Gürcüstandan Azərbaycana kustar üsulla hazırlanan keyfiyyətsiz spirtli içkilərin gətirilməsi faktları var və bu içkilərin də ölkəmizdə insanlara faciələr yaşatdığı məlumdur. E.Hüseynovun sözlərinə görə, Daxili İşlər Nazirliyinin müvafiq qurumları bu kimi hallara qarşı kəskin mübarizə aparsa da, yenə də qaçaqmalçılar öz çirkin əməllərindən qalmır və müxtəlif yollarla ölkəmizə kustar üsulla hazırlanan spirtli içkilər gətirirlər. "Çox təəssüf ki, Gürcüstandan Azərbaycana qanunsuz yollarla kustar üsulla hazırlanan işçilər gətirilir. Bu sahədə vəziyyətinin kəskinliyini praktik olaraq 8 ay əvvəl Daxili İşlər Nazirliyinin Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsi sübut etdi. Cinayətkarlığa Qarşı Mübarizə İdarəsi aşkarladı ki, ölkəmizə gətirilən brend bahalı spirtli içkilərin böyük bir hissəsi kustar üsullarla mənşəyi məlum olmayan mayelərdən hazırlanır, şüşələrə yığılır, satışa çıxarılır. O da məlumdur ki, spirtli içkilər aksiz vergisinə cəlb olunan mallardır. Bakıda fəaliyyət göstərən çoxsaylı gürcü restoranlarında kustar üsulla hazırlanan açı gürcü şərabı verilir. Bu spirtli içkilər də Azərbaycana qanuni şəkildə gətirilməyib. Çünki qanuni yolla açıq şəkildə Gürcüstandan Azərbaycana heç zaman spirtli içki gətirilə bilməz. Çünki aksiz vergisinə cəlb edilən mal kimi o qablaşdırılmaldır. Təkcə spirtli içkilər deyil, qanunsuz yollarla ölkəmizə gətirilən və bazarda satılan məhsulların satılma ümvanı ilə bağlı dəfələrlə Gömrük Komitəsinə məlumatlar vermişik. Çox təəssüflər olsun ki, qurum seyirçi mövqe göstərir. Bəli, Gürcüstandan Azərbaycana təhlükəli, mənşəyi bilinməyən məhlullardan hazırlanan spirtli içkilər gətirilir".

E.Hüseynov qeyd etdi ki, vaxtilə qaçaqmalçılar tərəfindən Ermənistandan da Azərbaycana üzəri erməni dilində yazılan spirtli içkilər gətirilib. "Lakin bu halın qarşısı alındı. Hər gün onlarla azərbaycanlı, erməni, gürcü Gürcüstan bazarında görüşür və mal mübadiləsi aparırlar. Bu baxımdan, istisna olunmur ki, Ermənistandan Gürcüstan vasitəsilə Azərbaycana spirtli içkilər daxil ola bilər. Gürcüstandan Azərbaycan ərazisinə kustar yollarla hazırlanan içkilərin qaçaqmalçılar tərəfindən keçirilməsi əksər hallarda gömrük orqanlarında çalışan bəzi məsuliyyətsiz məmurların "xeyir-duası" ilə reallaşır. Bu işdə qaçaqmalçılarla bəzi gömrük işçilərinin əlbirliyi özüün açıq şəkildə göstərir. Biz bu məsələni dəfələrlə səsləndirsək də, çox təəssüf ki, Gömrük Komitəsi reaksiya vermək əvəzinə seyirçi mövqe tuturlar. Buna misal üçün gedib Sədərək bazarına baxmaq kifayətdir".

Bu kimi halların qarşısının hansı səbəbdən alınmadığına gəlincə, E.Hüseynov qeyd etdi ki, bu aidiyyatı dövlət qurumlarını arasında effekli əlaqənin olmaması ilə bağlıdır. O, qeyd etdi ki, AQTA bazarda olan və bura qanuni yolla daxil olan qidanın təhlükəsizliyini yoxalamaqdır. "Məlumdur ki, gömrük postlarında AQTA-nın nümayəndələri var. Lakin onlar qaçaqmalçıların öhdəsindən gələ bilmir.

**Təəssüflər olsun ki, AQTA-nın bu əhəmiyyətli məlumatına gömrük orqanları əhəmiyyət vermək istəmir. Təhlükəli qidaların, o cümlədən də zərərli spirtli içkilərin satıldığı yerlər məlumdur, amma gömrük orqanları və daxili bazara nəzarət edən qurumlar bu məhsulların hansı yollarla ölkəyə gətirilməsini araşdırmırlar, onun mənbəyini tapmırlar "-deyə E.Hüseynov bildirdi.**

***İradə SARIYEVA***

№ 3 (4134) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

10 YANVAR 2020-ci il

www.baki-xeber.com

## Misirdә firon I Ptolemeyin dövrünә aid daş kitabәlәr tapıldı

**Misirli arxeoloqlar ölkәnin qәdim Sohaq yaşayış mәskәnindә eramızdan әvvәl IV әsrә aid olan beş әdәd müxtәlif ölçülü daş kitabә aşkar ediblәr.**

"AZƏRTAC" bildirir ki, Misirin qәdim abidәlәr üzrә Ali Şurasının rәhbәri Mustafa Vәziri tapılan daş kitabәlәrin yaşayış mәskәninin yaxınlığında yerlәşәn Əl-Souq qәsәbәsindәki IV Ptolemey sәrdabasında nümayiş etdirilәcәyini bildirib. Daş kitabәlәrin ilk analizini aparan arxeoloqlar bildiriblәr ki, bu qәdim abidәlәr Osiris tanrısının mәbәdinә mәxsus olub vә Ptolemey sülalәsinin banisi firon I Ptolemeyin dövrünә aiddir. Kitabәlәrdә yazı vә rәsmlәr әks olunub. Onlardan birindә firon I Ptolemeyin taxtda oturan Misir tanrısı Osirisә paltar tәqdim etmәsi sәhnәsi yer alıb.



Digәrindә isә Osirisin bacısı İsisin tәsviri var. Daş kitabәlәrdә Neftis tanrıçası vә tanrı Horusun da rәsmlәri әks olunub. Misirli arxeoloqların yeni tapıntısı onların dünyadakı hәmkarlarının da böyük marağına sәbәb olub.

## Oğurluq üçün girdiyi restoranda özünә kartof qızartdı, sonra da uzanıb yatdı



**ABŞ-da qәribә oğurluq hadisәsi qeydә alınıb. "Nypost" xәbәr verir ki, Corciya ştatında, Lourensvil şәhәrindә yerlәşәn "Taco Bell" fastfud restoranına axşam saatlarında oğru girib.**

O, oğurluq üçün girdiyi restoranın mәtbәxinә keçәrәk özünә yemәk bişirib, kartof qızardıb, yeyib. Daha sonra, döşәmәdә uzanaraq yuxuya gedib. Sәhәr saatlarında restoranı açan şәxs yerdә kiminsә yatdığını görәndә özünü itirib. O, polis çağırarkәn oğru noutbuk vә kassadan pul götürәrәk qaçıb. Hazırda polis hәr yerdә oğurluq edәn şәxsi axtarır.

## Elan

Hәsәnәliyev Azәr Qәdir oğlunun adına, Bakı şәhәri, Gәncә prospekti, ev 95, mәnzil 45 ünvanına verilmiş Dövlәt Reyestrindәn çıxarış (kupça) itdiyi üçün etibarsız sayılır.

Bakı Dövlәt Universitetinin Beynәlxalq Münasibәtlәr vә İqtisadiyyat fakültәsinin 4-cü kurs tәlәbәsi Çıraqova Günel Xәqani qızına BDU tәrәfindәn verilәn tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Mirzәyev Elçin Mirağa oğlunun adına olan, Abşeron rayonu, Saray qәsәbәsi әrazisindә yerlәşәn, reyestr nömrәsi 308013000721 olan 0,085914 ha torpaq sahәsinin çıxarışı itdiyi üçün etibarsız sayılır.

Zәrbalıyeva Esmira Arif qızının adına, Binәqәdi rayonu, 14-cü Aşırım küçәsindә yerlәşәn ev 43, mәnzil 106 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

"Sevil-O" İstehsalat Kommersiya Firmasına mәxsus çıxarış (seriya RX №1048746) vә texniki pasport itdiyi üçün etibarsız sayılır (Bakı şәhәri, Suraxanı rayonu, Hövsan qәsәbәsi, Dәnizkәnarı küçә 131c).



## "Nar" komandası "Breyn Rinq" üzrә Azәrbaycan çempionu oldu

**"Nar"ın baş sponsorluğu ilә yayımlanan ölkәnin әn maraqlı vә baxımlı intellektual yarışı "Breyn Rinq"in 14-cü mövsümü yekunlaşıb.**

Mobil operatorun dәstәk olduğu "Nar" komandası ilin qalibi olub. Belә ki, ölkә intellektuallarının mübarizә apardığı yarışda "Nar" bütün rәqiblәrini geridә qoyaraq "Breyn Rinq" üzrә 2019-cu ilin Azәrbaycan çempionu tituluna sahib olub. Finalda "Nar" komandası "Bilik" kubokunun sahibi "İçәrişәhәr" komandası ilә qarşılaşıb vә mübarizәdә qalib gәlib. Qeyd edәk ki, ötәn mövsümkü yarışda "Nar" komandası mobil operator tәrәfindәn tәsis edilmiş "Nar" kubokunun sahibi idi. Qaydalara görә isә mövsümün sonunda "Bilik" kuboku vә "Nar" kubokunun qaliblәri Azәrbaycan çempionu titulu uğrunda yarışır. Bu mövsüm yarışda 11 universitet vә 15 region komandası da daxil olmaqla, 34 komanda mübarizә aparıb. İctimai Televiziyada yayımlanan "Breyn Rinq"ın 14-cü mövsümü sentyabr ayında başlamışdı.

Gәnclәrin maariflәnmәsinin, dünyagörüşünün vә analitik düşüncә bacarığının inkişafının cәmiyyәt üçün әhәmiyyәtini anlayaraq, "Nar" öz korporativ sosial mәsuliyyәt strategiyası çәrçivәsindә müxtәlif layihәlәrә dәstәk verir. "Breyn Rinq" bilik müsabiqәsi dә bunlardan biridir. Ətraflı mәlumatı nar.az sәhifәsindәn әldә etmәk olar. "Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib. "Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib. "Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 93%-ni (işğal olunmuş әrazilәr istisna olmaqla) әhatә edir vә 8600-dәn artıq baza stansiyası ilә 2,3 milyondan çox abunәçiyә yüksәk keyfiyyәtli xidmәt göstәrir.





**Qoç** - Bu günü sakit keçirmәk tövsiyә olunur. Sizә vacib görünәn mәsәlәlәri bir kәnara qoyun. Eybi yox, әtrafınızdakılar bu barәdә nә düşünürlәrsә, qoy düşünsünlәr. Tez-tez sizi özünüzdәn çıxaran insanlarla ünsiyyәtdәn qaçın.



**Buğa** - Vacib mövzuları götür-qoy edin. Öz mülahizәlәrinizi qohumlarınızla bölüşün, gәlәcәk planların müzakirәsindәn qaçmayın. Bu gün nikaha girmәk, yaxud sevdiyiniz insanla birgә yaşamaqla bağlı qәrar verә bilәrsiniz.



**Əkizlәr** - Hәr kәs әsәbidir. Çox az adam qıcıqlanmadan kimisә dinlәyir. Bәzilәri özünәnәzarәti güclәndirmәyә çalışsalar da, mәnfi emosiyalar lazım olmayan anda püskürür. Odur ki, münaqişәli situasiyaların çoxluğu qaçılmazdır.



**Xәrçәng** - Günün birinci yarısında diqqәtsizlik, yüngülxasiyyәtlik vә öz gücünü düzgün hesablamamaq sәbәbindәn çәtinliklәr yarana bilәr. Bu dövrdә nahaq xәrclәr vә maliyyә itkilәri gözlәnilir.



**Şir** - İstәnilәn söhbәt, ünsiyyәt üçün gözәl gündür. Çәtinlik çәkmәdәn diqqәt mәrkәzinә düşür, insanların rәğbәtini qazanır, yeni tәrәfdaşlar tapırsınız. Ziyafәtә gedә, yaxud onu özünüz tәşkil edә, qonaq qәbul edә bilәrsiniz.



**Qız** - Bir çoxları tәklifdә, yaxud ünsiyyәtlәrin sayını azaldaraq mәhsuldar işlәyә bilәcәklәr. Günün ikinci yarısında müsbәt tendensiyaların tәsiri artacaq. Bu zaman sürprizlәr, xoş tәsadüflәr, maraqlı görüşlәr mümkündür.



**Tәrәzi** - Yeni tanışlıqlara can atmanız, әhatә dairәnizi genişlәndirmәk istәyiniz ünsiyyәtlәrinizi kor-koranә edir. Bu, tәhlükәli ola bilәr, xüsusilә dә xanımlar üçün. Axşam tәklikdә gәzintiyә çıxa bilәrsiniz.



**Əqrәb** - Uğurlu tәsadüflәr gözlәnilir. Siz, yәqin ki, bunlardan istifadә edәcәksiniz. Nә istәdiyini bilәnlәr üçün bu gün әla gündür. Azlıqda qalmısınızsa, hәrәkәt etmәyә tәlәsmәyin.



**Oxatan** - Gün elә dә pis başlamır. Amma getdikcә mәnfi yüklü hadisәlәr çoxalır. Planları dәyişmәli, böyük sәbrsizliklә gözlәdiyiniz tәdbirlәrdәn imtina etmәli olursunuz.



**Oğlaq** - Bu gün daha mәsuliyyәtlisiniz. Ciddi yanaşma bir çox problemlәrinizin hәllinә kömәk edir. Bunların sırasında әvvәllәr heç cür öhdәsindәn gәlә bilmәdiklәriniz dә var. Çoxdan darıxdığınız insanlar peyda olacaqlar.



**Dolça** - Günün yaxşı tәrәflәri dә var. Mәsәlәn, bir çoxları bu gün kәşflәr etmәyә meyllidirlәr. Çoxları şәxsi hәyatlarında nәyisә dәyişmәk istәyir vә xoş tәsadüfdәn bunun üçün yaxşı imkanlar yaranır.



**Balıqlar** - Yaxşı başlanan çox pis davam edә vә fәlakәtlә bitә bilәr. Diqqәtli olun, sınma anını - xoşbәxtlikdәn bәdbәxtliyә dönmә nöqtәsini - tutmaq vә vәziyyәti xilas etmәk şansınız var.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## İnsan sifәtini imitasiya edәn material...



**Massaçusets Texnologiya İnstitutunun alimlәri tәrәfindәn yaradılmış material formasını dәyişdirә vә insan sifәtini imitasiya edә bilәr.**

Bu texnoloji hәll gәlәcәkdә süni әzәlәlәrin sürәtli hazırlanmasında istifadә edilә bilәr. "İctnews.az" bildirir ki, Massaçusets Texnologiya İnstitutunun tәdqiqatçısı Vim Van Ris nazik düz vәrәqin mürәkkәb formalara (mәsәlәn, insan sifәtinә) çevrilmәsi metodunu hazırlayıb. Alim deyib ki, adәtәn, sәth dartıla, sıxıla vә ya parçalana bilmir vә bu, tәdqiqatçılar düz sәthlәrin formasını dәyişdirmәk istәdikdә, problem yaradır. "Gәlәcәkdә bu hazırlamadan süni әzәlәlәrin yaradılmasında istifadә etmәk olar, çünki, material istәnilәn formanı ala bilәr", - tәdqiqatçılar deyiblәr.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.